HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 iyun 2016-cı il
№011 (25)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## BAKIDA DÜNYA AZƏRBAYCANLILARININ IV QURULTAYI KEÇİRİLDİ




3-5 iyun tarixində baş tutan Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edib. Qonaqlar arasında xarici ölkələrin nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və yüksək vəzifəli şəxsləri, parlament üzvləri də var idi. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, qurultayın işinə Azərbaycanın müxtəlif dövlət və hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti də qatılıb. Qurultayda diaspor rəhbərləri müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparılaraq, rəy və təkliflərini səsləndiriblər.

Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. mühüm məsələlər müzakirə olunub. Qurultayda Azərbaycan prezidenti İlham Əliyev geniş nitqlə çıxış edib.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I qurultayı 2001-ci ildə, II qurultayı 2006-cı ildə, III qurultayı isə 2011-ci ildə keçirilib.

## GÜRCÜ HƏRBİÇİLƏRİ TÜRKİYƏDƏ ÇOXMİLLƏTLİ HƏRBİ TƏLİMLƏRDƏ İŞTİRAK EDİBLƏR

Gürcüstanın hərbi qulluqçuları Türkiyədə çoxmillətli birgə hərbi təlimlərə qatılıblar.

Çoxmillətli xüsusi təyinatlı qüvvələrin birgə hərbi təlimləri 6-12 iyun tarixində Türkiyədə həyata keçirilib.

Hərbi təlimlərdə Azərbaycan silahlı qüvvələrinin nümayəndələri ilə yanaşı Bolqarıstan, Gürcüstan və Türkiyənin hərbi qulluqçuları da iştirak ediblər.

Azərbaycan, Bolqarıstan, Gürcüstan və Türkiyə xüsusi təyinatlılarının birgə hərbi təlimlərinin keçirilməsi təcrübə mübadiləsi və qarşılıqlı hərəkət imkanlarının inkişaf etdirilməsi məqsədi daşıyıb.

## PARLAMENT SEÇKİLƏRİNİN VAXTI BƏLLİ OLDU

Gürcüstan prezidenti Georgi Marqvelaşvili iyunun 3-də parlament seçkilərinin tarixinin təyin edilməsi haqqında fərman verib.

Prezidentin fərmanında bildirilir: “Gürcüstan Konstitusiyasının 73-cü maddəsinin 2-ci bəndinə və “Gürcüstan seçki məcəlləsi” qanununun 108-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq Gürcüstan parlamentinə növbəti seçkilər 2016-cı ilin 8 oktyabr tarixinə təyin edilsin. Acara Muxtar Respublikasının Ali Sovetinə növbəti seçkilər 2016-cı ilin 8 oktyabrına təyin edilsin”.



Xatırladaq ki, Georgi Marqvelaşvinin imzaladığı fərman ölkənin baş naziri Georgi Kvirikaşvili tərəfindən qanunvericiliklə müəyyən olunmuş müddətdə kontrassiqnasiya edilərək, artıq qanuni qüvvəyə minib.

## MSK SEÇİCİLƏRİN VAHİD SİYAHISINI YENİLƏYİB

Gürcüstan MSK seçicilərin vahid siyahısını yeniləyib. İstənilən vətəndaş özü haqqında məlumatları voters.cec.gov.ge saytında yoxlaya bilər.

İyunun 7-də 73 majoritar dairədə müvafiq dairə seçki komissiyaları 3 634 seçki məntəqəsi yaradaraq, onların nömrə və sərhədlərini müəyyənləşdiriblər. Özü haqqında məlumatları vahid seçki siyahısında yoxlayan istifadəçi hansı seçki məntəqəsində qeydiyyata alındığını da öyrənə biləcək. Siyahı barədə məlumat qeydiyyatdan keçmiş partiyalar, seçki blokları, seçki qanunvericiliyi ilə müəyyən olunmuş müşahidə təşkilatları və seçicilər üçün açıqdır. Qeyri-dəqiqlik aşkarlandığı halda maraqlanan şəxslər sentyabrın 22-dən gec olmayaraq seçki komissiyasına müraciət edib, düzəliş etməyi tələb edə bilərlər.

Seçki qanunvericiliyinə görə MSK iyulun 15-də növbəti yeni məlumatlar alacaq və onun əsasında vahid seçki siyahısında məlumatlar bir daha yenilənəcək.

## BAŞ NAZİR GÜRCÜSTAN MÜSƏLMANLARINI RAMAZAN MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstan hökumətinin başçısı Georgi Kvirikaşvili ölkə müsəlmanlarını Ramazan ayının başlaması münasibətilə təbrik edib.

Özünün təbrikində ölkəmizin baş naziri əsasən bunları səsləndirib: “Müsəlman həmvətənlərimizi Ramazan münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bu bayram hər bir müsəlman üçün çox mühüm əhəmiyyət daşıyır. Hamıya əmin-amanlıq, sağlamlıq və xoşbəxtlik arzulayıram”.

## GYMD BÜTÜN MÜSƏLMANLARI MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ TƏBRİK EDİR

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı olaraq bütün müsəlmanları müqəddəs Ramazan ayının başlanması münasibətilə təbrik edir, qardaşlıq, bərabərlik və paylaşma ayının onların ailələrinə xoşbəxtlik və firavanlıq gətirəcəyinə ümid edirik. Müqəddəs Qurani-Kərimin nazil olduğu Ramazan ayında tutulan orucun, edilən duaların cənabi haqqın dərgahında qəbul ediləcəyini niyyət edən təşkilatımız bütün insanlara, dünyamıza, vətənimizə əmin-amanlıq arzusunu da dilə gətirərək, dünyanı bürüyən terror, müharibə və münaqişə ocaqlarının tezliklə sönəcəyini böyük Yaradandan bir daha təmənna edir. Bəşəriyyəti təhdid edən bu bəlaların ağıl, kamal və elm yolu ilə aradan qaldırılmasına ümid edən Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı hər bir islam əhlinin tutduğu orucun, etdiyi duanın dünyamızın xilasında müstəsna rolunu bir daha vurğulayıb, bütün müsəlmanlara Ramazan ayınız mübarək olsun deyir.

## PARLAMENT SEÇKİLƏRİNDƏ ƏSAS OYUNÇULARDAN ƏLAVƏ 20-DƏN ARTIQ PARTİYA DA İŞTİRAK ETMƏK İSTƏYİR

Mərkəzi Seçki Komissiyasının məlumatına görə, 6 iyunadək parlament seçkilərində iştirak etmək üçün 25 siyasi partiya müraciət edib.

Gürcüstanda parlament seçkiləri oktyabrın 8-də keçiriləcək, seçkiqabağı kampaniya isə rəsmi olaraq iyunun 8-də başlayıb.

MSK aprelin 1-dən seçkidə iştirak üçün partiyaların qeydiyyatına başlayıb. Artıq “Xalq hakimiyyəti”, “Leyborist”, “Vətənpərvərlər Alyansı”, “Demokratik Hərakat – Vahid Gürcüstan” partiyaları qeydiyyatdan keçib.

Gürcüstan Kommunist partiyası, Sosialist partiyası, Avropa Demokratları, Merab Kostava cəmiyyəti və digər kiçik partiyalar da parlament seçkilərində iştirak edəcəklərini açıqlayıblar.

Hələlik əsas oyunçular – hakim “Gürcü arzusu – Demokratik Gürcüstan”, “Respublika”, “Bizim Gürcüstan – Azad Demokratlar”, ən böyük müxalifət partiyası “Vahid Milli Hərəkat” və Paata Burçuladzenin “Xalq üçün Dövlət” partiyası qeydiyyat üçün müraciət etməyiblər.

Partiyalar MSK-ya 25 min seçicinin siyahısını da verməlidirlər. 2014-cü il seçkilərinin nəticələrinə görə yerli özünü idarəetmə orqanlarında nümayəndəsi olan partiyalar min seçicinin siyahısını təqdim etməlidirlər.

MSK seçkilərə 30 gün qalmış bütün partiyaların qeydiyyatını başa çatdırıb, son siyahını öz saytında dərc etməyə borcludur.

# SEÇKİQABAĞI QEYRİ-RƏSMİ SÖHBƏTLƏR

Elə gözümüzü bu dünyaya açar-açmaz, ayağımızı yerə basar-basmaz biz gözümüzün gördüyü nəsnələri bir-birindən fərqləndirməyə başlayırıq, yəni ağı qaradan seçirik. Burnumuza dəyən xoş ətirlə, leş qoxusunu ayrıd edə bilirik. Qulağımıza çatan səsin nə dərəcədə məlahətli və ya zəhlətökən olduğunu fərqləndirmək bacarığına da yiyələnirik. Nəyinsə damağımıza şirinlik, nəyinsə acılıq, lap elə turşluq gətirdiyini o saat müəyyənləşdirib ortaya çıxarırıq. Əlimiz bir şeyə toxundumu gözüyumuluca bilirik ki, əlimizin altındakı ipək parçadır, yoxsa çopur bir daş. Get-gedə istini soyuqdan, qaranlığı işıqdan, dəlini ağıllıdan, sevgini nifrətdən, hörməti yaltaqlıqdan ayırıb, ifçinləməyi də öyrənirik.

Yəni fitrətən bəşər oğlu nəyin yaxşı, nəyin pis, kimin dost, kimin düşmən olduğunu fərqləndirmək bacarığına sahibdir. Sanki o, bütün bunları anasından əmdiyi südlə birlikdə mənimsəyir. Hərçənd ki, müasir colma-cocuq ana südünə də həsrətdir. Və mən bilmirəm onlar qida kimi qəbul etdikləri süni südlə də bunları mənimsəyib öznünküləşdirə bilirlərmi, yoxsa bu fərasəti başqa bir qaynaqdanmı əldə edirlər? Düzünü deyim ki, bu, mənim özüm üçün də bir müəmmadır, sirri-xudadır. Deməyim odur ki, süni südlə mayası tutulan bir tifili aldatmaq, onun ağlını kəsdirmək, istədiyini bir yolla unutdurmağa cəhd etmək ağılsızlıq ola bilər. Nədən ki, zəmanə uşağı dediyimiz, amma elə bil yekədən bala kəsilmiş bu homotexnikuslar bildiklərini babalarına verən deyillər. O üzdən ki, ağılları kəsir, o üzdən ki, ağı qaradan, xeyirlərinə olan hər şeyi ziyanlarına işləyənlərdən sən ağzını açıncaya qədər fərqləndirə bilirlər.

Bütün bunların mətləbə bir elə dəxili də yox idi. Bir də baxdım ki, elə gəlişigözəl sözləri yan-yana düzmüşəm. Bir də ola bilər ki, əsas fikrə keçid almaq üçün özümdən asılı olmadan belə bir üslub seçmişəm. Bu məqamın məndən ötrü ən yadda qalan yeri seçməklə bağlıdır, yəni mən yazım üçün başqa bir mövzu və ya başqa bir üslub da seçə bilərdim. Seçim imkanının çox olması bir tərəfdən yaxşıdır ki, istədiyini seçə bilirsən. Bir tərəfdən də pisdir ki, adam çaş-baş qalır, bilmir nəyi seçsin, nəyin qulpundan yapışsın.

Hə, deyəsən, mən bala-bala ipin ucunu tapıram. Ölkəmizdə oktyabrın 8-də keçirilməsi nəzərdə tutulan parlament seçkilərindən danışmaq fikrinə düşmüşəm. Artıq bu seçkilərin vaxtı da rəsmiləşdirilib, seçkiqabağı kampaniyaya da start verilib. Bəri başdan deyək ki, kimlərin qələbə çalmasından asılı olmayaraq, bu seçki və ya bu seçimimiz ölkəmiz üçün düşərli olsun, parlamentdə bizi təmsil edəcək adamlar ən layiqlilər olsunlar. Mən inanıram ki, ölkə əhalisinin əksər hissəsi də məhz bu cür düşünür. Orasını da diqqətinizə çatdırım ki, artıq MSK 20-dən çox partiyanı qeydiyyata alıb və elə düşünməyin ki, bu, sondur. Gələn xəbərlər arasında seçki marafonuna yeni partiyaların qoşulacağı da istisna olunmur. Təki belə olsun, varlığa nə darlıq, ürəyimiz istəyənləri seçərik deyib, mövzunu qapamaq da olardı. Amma adamı bir şey düşündürür ki, balam, kiçik bir ölkə üçün bu qədər partiya çox deyilmi və bu çoxluğun içərisində vətəndaşımız çaş-baş qalmayacaqmı, seçimini edənəcən haldan hala düşməyəcəkmi? Bu ilki seçkiqabağı kampaniya Gürcüstanın seçki tarixində ən uzun davam edənidir. Dörd ay davam edəcək bu proses seçmək istəyənlərin də, seçilmək istəyənlərin də və dilimi sakit saxlaya bilmədiyimdən bunu da deyim ki, seçdirmək istəyənlərin də xeyli tərləməsinə nədən olacaq. Tərəfimdən onu da əlavə edim ki, özü də bu tərləmə sözün hər mənasında baş verəcək. Bəs seçkini nə balaca zad bilirsən, ağızında seçki deyirsən. Həm də bu seçki yerli idarəetmə orqanlarına olan seçki də deyil ki, bir tərəfini boş buraxıb əlini yelləyəsən. Dağ boyda parlament seçkisidir.

Az qala hər kənddə, hər məhəllədə, hər dalanda, hər tində-bucaqda və hətta hər evdə bir hərəkətlilik müşahidə olunacaq. Nə gecəmiz olacaq, nə gündüzümüz. Gələningedənin ayağının altında itəcəyik. Hər gələn də "bağ belə gəldi, bostan belə getdi", "məni seçin, çəkilin, oturun evinizdə, görün lələşiniz sizdən ötrü nələr yaradacaq" və ya "yaşadığınız yeri yalançı cənnət eləyirəmmi, eləmirəmmi" kimi qəliz fikirlərilə bizi başdan-beyindən edəcək. İnanan da olacaq, inanmayan da. Seçkimi görməmişik, deputatmı seçməmişik? Seçki başa çatdımı, keçi öləcək qoturu da kəsiləcək...

Az qala adamlar yatanda da seçki sayaqlayacaqlar. Seçki deməkdən bəzi kişilərin dili dolaşacaq, yanılıb uşaqların anasına misal üçün Fatma yerinə "ay Seçki, bu çay zəhrimar harda qaldı, seçkiyə gecikirəm, tez elə" kimi laflar söyləyəcək. Seçki sicilləməsi keçi sicimi kimi uzandıqca uzanacaq. Əslində bunun belə olması çox təbiidir. Nədən ki, hər bir seçki ölkənin taleyinin həll olunduğu bir dönəmdir, üstəgəl, köhnə ilə yeninin mübarizəsi dönəmidir. Odur o boyda Amerika kimi zırıltı bir dövlət nə vaxtdır seçki deməkdən yorulmur. Hillari Klintonla Donald Tramp arasında qorxuram noyabradək qiyamət qopa.

Özüm də bilirəm ki, mənim bu sözüm-gapım heç bir Avropa standartına uyğun deyil.

Elə düşünməyin ki, parlament seçkiləri ilə canımız qurtaracaq. Əsla. Bizim peşəmiz hər gün nəyisə, kimisə seçmək deyilmi? Söz məsəli, iyunun 10-da məktəblərdə Qəyyumlar Şurasına seçkilər keçirmədikmi? Seçilən seçildi, seçilməyən də yenə işində-gücündədir. Seçkim(iz) mübarək, seçimim(iz) düşərli olsun!

Afiq MUXTAROĞLU

# RAMAZANDA TOYU NECƏ ETMƏLİ ?

İslamın beş əsas şərtindən biri olan orucun tutulduğu mübarək Ramazan ayını yaşayırıq. Bu ay elə bir aydır ki, bu ayda müqəddəs kitabımız Qurani Kərimin endirildiyi, min aydan daha xeyirli olan Qədir gecəsi yer almaqdadır. Bir müsəlman bu ayın gündüzlərini oruclu, gecələrini isə ibadətlə keçirməlidir. Oruc tutmayanlar isə bu aya və bu ayda oruc tutanlara hörmət əlaməti olaraq açıqdan yeməməlidirlər.

Bu il ramazan ayı iyun ayına



təsadüf edir. Deyəcəksiniz ki, hansı aya düşdüyünün nə önəmi var? Bəli, yazım da elə bu mövzudadır. Bizim müsəlman xalqımız (şübhəsiz ki, Gürcüstanda yaşayan azərbaycanlıları nəzərdə tuturam) may ayında toy etməkdənsə, Ramazanda toy etməyi daha üstün tutur ki, mayda toy etmək uğursuzluq və bədbəxtlik gətirir. Məni maraqlandıran odur ki, bəs görəsən bu millət düşünmürmü ki, uğuru və xöşbəxtliyi verən kimdir? Şübhəsiz ki, insanı yaradan və yaşadan Allahdır. Xoşbəxtliyi verənin əmrindən çıxmaqla və Qədim romalıların uğursuzluq gülü hesab etdikləri yasəmən may ayında gül açır deyə, may ayında toy etmək uğursuzluqdur deyərək, görəsən hansı xoşbəxtliyi axtarırıq? Allahın oruc tut dediyi ayda, yəni Ramazan ayında toy etməyə gəlincə, biz Ramazanda toy etməyin demirik. Edin, ancaq ədəbi ilə, üsulu ilə edin. Həzrəti peyğəmbər "Kim bir orucluya iftar verərsə, özünə onun savabı qədər savab yazılar. Üstəlik bu səbəblə orucluнun savabından heç bir əskilmə olmaz" – buyurur. Deməк ki, bu toyun yemək süfrəsini iftar vaxtına salıb ədəb və ərkanını qorusaq, Ramazanda toy etmək daha gözəldir. Yox, əgər bu xüsuslara diqqət etməyib, sadəcə may ayında toy olmasın deyiriksə, o zaman bir az oturub düşünmək lazımdır. Onu düşünmək lazımdır ki, Allahın qəzəbini qazanaraq xoşbəxt olmaq olar, ya yox?

Dəyərli oxucular, onu da qeyd edim ki, bu mövzunun, yəni may ayında toy etməyin din ilə yaxından və uzaqdan heç bir əlaqəsi yoxdur. Yuxarıda da qeyd etdiyimiz kimi, əgər oruc tutmayan varsa, orucluya hörmətsizlik olmasın deyə, yeməyini bir qədər ondan kənarda, belə demək mümkünsə gizlindən yesə daha yaxşıdır. İndi gəlin bir də oruclu şəxslərin gözü qarşısında toy etməyi, içki süfrəsi təşkil etməyi düşünək. Bunun nə dərəcədə düzgün olmasına isə mən yox, siz özünüz qərar verin.

Əziz müsəlmanlar! Gəlin özümüzə qayıdaq, dinimizə qayıdaq. Başqa dinlərdə nə var, nə yox bu bizi maraqlandırmasın. Biz dinimizin, Quranımızın və peyğəmbərimizin bizlərə öyrətdiyi yol ilə hərəkət edək.

**Hacı BƏKİROĞLU**

# GÜRCÜSTANA XARİCİ İNVESTİSİYA AXINI 103% ARTIB

2016-ci ilin birinci kvartalında xarici investisyanın həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 103% artaraq, 373 milyon dollar təşkil edib.

Gürcüstan Milli ststistika xidmətinin məlumatına görə, hazırkı mərhələdə bu, yalnız ilkin informasiyadır, zaman keçdikcə ona düzəlişlər edilə bilər.

Bu dövrdə ən böyük investor ölkələr Azərbaycan (36%), Türkiyə (15%) və Böyük Britaniaya (12%) olub.

Statistika xidmətinin məlumatına görə, xarici investisiyanın 79%-i üç böyük sahəyə yatırılıb. Nəqliyyat və kommunikasiya sahəsinə 200 milyon dollar, maliyyə sektoruna 58 milyon dollar və energetika sahəsinə 40 milyon dollar sərmayə qoyulub.

# GÜRCÜSTANDA ƏHALİNİN 65%-İ ÖZÜNÜ İŞSİZ HESAB EDİR

Transparency International-ın sifarişi ilə "Qafqaz araşdırma resursları mərkəz"inin (CRRC) həyata keçirdiyi rəy sorğusunun nəticələri hal-hazırda Gürcüstan əhalisinin yalnız 35%-inin işi olduğunu təsdiqləyir.



65% özünü işsiz adlandırıb. Ötən illə müqayisədə ölkədə vəziyyət bir qədər yaxşılaşıb. Ötən il bu göstəricilər müvafiq olaraq 30% və 70% təşkil edirdi. Bununla belə, rəsmi məlumata görə, Gürcüstanda ötən il işsizlər yalnız 12% təşkil edіblər. İşi olanların 31%-i büdcə sferasında çalışanlardır.

Rəy sorğusuna əsasən, özünü işsiz adlandıranların 47%-i öz vəziyyətlərini düzəltməklə maraqlanmayıblar. Tədqiqat müəllifləri qeyd edirlər ki, əgər bu göstəriciləri bütün ölkə üzrə ekstrapolyasiya etsək, onda belə adamların sayı 980 min nəfər olar.

Rəy sorğusu 15-28 mart tarixində keçirilib və ölkə üzrə 2032 adamın rəyi öyrənilib.

# DÜNYAMALI HACIYEV: "KABİNETDƏ İŞLƏMƏK MƏNİM ÜÇÜN İŞ PRİNSİPİ DEYİL"

**Əməkdaşımızın bu günlərdə Qardabani icra nümayəndəsinin müavini Dünyamalı Hacıyevdən aldığı müsahibəni təqdim edirik.**

**A. Ə.** – Dünyamalı müəllim, bəri başdan sizi öz adımızdan və qəzetimizin oxucuları adından salamlayırıq. Gec də olsa belə bir məsul vəzifəyə seçilməniz münasibətilə sizi təbrik edirik.

**D. H.** – Çox sag olun, təşəkkür edirəm. Mən də sizi və qəzetimizin oxucularını salamlayiram.

**A. Ə.** – Xahiş edirik özünüzü oxucularımıza təqdim edin. Dünyamalı Hacıyev kimdir, necə bir mühitdə böyüyüb, harada təhsil alıb, hansı işlərdə çalışıb, özü və ailəsi barədə nə deyə bilər?

**D. H.** – Mən Dunyamalı Suleyman oğlu Hacıyev 10.03.1974-cü ildə Qardabani rayonunun Nəzərli kəndində anadan olmuşam. Fəhlə ailəsində böyümüşəm. 1980-1991-ci illərdə Nəzərli orta məktəbində orta təhsil almışam. 1991-1996-cı illərdə Bakıda Azərbaycan inşaat mühəndisləri universitetində ali təhsilə yiyələnmişəm. İxtisasca inşaatçı mühəndisəm. 2003-cü ildə Nəzərli kənd sakrebulosunda baş mühasibin müavini, baş mühasib, 2004-2006-cı illərdə aparat rəisi, 2007-2010-cu illərdə Nəzərli kəndində icra nümayəndəsi, 2010-2013-cü illərdə Qardabani bələdiyyəsinin üzvü, 2013-cü ildən 2016-cı ilin fevralına qədər Nəzərli icra nümayəndəsi, 2016-cı ilin fevralından isə Qardabani icra nümayəndəsinin müavini vəzifəsində çalışıram. Ailəliyəm. Bir oğul ve bir qız atasıyam.

**A. Ə.** – Dünyamalı müəllim, sizin özünüzün də dediyiniz kimi uzun müddət rayonun Nəzərli kəndində müxtəlif məsul vəzifələrdə çalışmısınız, indi də kənd camaatının əli sözün həqiqi mənasında sizdən ötrü uzalıdır. Vəzifəli şəxs kimi camaatla işləməyin, xalqla yola getməyin sirri nədədir? Əgər sirr deyilsə özünüzü xalqa necə sevdirə bilməniz barədə bir-iki kəlmə danışardınız.

**D. H.** – Sual çox maraqlıdr. Qısaca olaraq onu deyə bilərəm ki, xalqla işləmək dərin hövsələ, geniş səbir, xalqına, elinə-obasına bağlılıq tələb edir, imkan daxilində xalqın xeyrində-şərində iştirak etmək, onun sevincini bölüşmək, dərdinə şərik olmaq lazım gəlir. Xalqla yola getməyin sirrinə gəlincə isə sosial sıxıntılar içərisində çırpınan təbəqə ilə və ya digər problemlərlə üzləşən eloğlumla ünsiyyətdə, təvazökarlıqdan uzaq olsa da, mən heç vaxt özümü məmur kimi aparmaışam. Hər vaxt özümü onların qulluqçusu hesab etmişəm.

**A. Ə.** – Artıq bir neçə aydır ki, rayon səviyyəsində fəaliyyət göstərirsiniz, rayon icra nümayəndəsinin müavinisiniz. Təbii ki, yeni vəzifənizdə siz daha çətin, daha geniş miqyaslı və daha məsul işləri yerinə yetirməli olursunuz. Mümkünsə bu işlərin öhdəsindən necə gəldiyiniz barədə danışın.

**D.H.** – Bəli, artıq 4 aydır ki, rayon icra nümayəndəsinin müavini kimi çalışıram. Əlbəttə ki, rayon səviyyəsində işlərimiz geniş miqyaslıdır. Gündəlik görüşlər, tədbirlər, layihələrin müzakirəsi və onların icrasına nəzarət etmək, problemlərlə qarşılaşmış vətəndaşlarımızı qəbul edib dinləmək və onlara imkan çərçivəsində kömək etmək mənim istirahət bilmədən yerinə yetirməyə çalışdığım gündəlik iş tərzimdir. Bu qədər məsul işlərin vaxtında öhdəsindən gəlməyin səbəbi isə, fikrimcə, kabinetdə oturaq şəraitdə işləmək yox, kəndbəkənd gəzərək problemləri yerindəcə araşdırmaq və köməyə ehtiyacı olanlara yardım etməkdədir. Nə dərəcədə səmimi qəbul edəcəksiniz bilmirəm, kabinetdə işləmək mənim üçün iş prinsipi deyil. İstirahət günlərimi isə iş saatlarımda qəbul etdiyim vətəndaşlarımızın problemlərinin həllinə sərf edirəm. Bununla belə hər bir işi yoluna qoydum, çözdüm deməyə dilim gəlmir.

**A. Ə.** – İndi isə icazənizlə söhbətimizin axarını başqa səmtə salaq. Heç kimə sirr deyil ki, Qardabani rayonu coğrafi mövqeyinə görə, əhatə etdiyi ərazilərə görə çox genişdir, belə demək mümkünsə hətta dağınıqdır. Belə bir vəziyyətdə görülən işlərə nəzarət etməyin çətinlikləri də yox deyil. Rayon mərkəzində, eləcə də kəndlərdə bir sıra infrastruktur layihələrinin həyata keçirildiyinin də şahidiyik və "Yeni Yol" olaraq biz bu barədə mütamadi olaraq oxucularımıza məlumat verməyə də çalışırıq. Yaxşı olardı ki, bu barədə məlumatları oxucular rayonun rəhbərliyində təmsil olunan Dünyamalı Sülüeyman oğlunun dilindən eşitsinlər.

**D. H.** – Dogrudur rayonumuzun ərazisi böyük və əhatəlidir. Sərhəd bölgəsi olan Vaxtanqisidən başlayaraq Muğanlıya qədər 19 inzibati ərazi vahidinə xidmət göstəririk. Kəndlərdə və şəhərdə infrastruktur layihələrin icrasına başlamışıq. Uşaq bagçalarının yenidən qurulması, küçələrin asfaltlaşdırılması, küçə və yolların işıqlandırılması, idman meydançalarının reabilitasiyası, küçələrə çınqıl döşənməsi , içməli su xətlərinin bərpa olunması və qazı olmayan kəndlərə təbii qazın çəkilməsi işlərinə başlamışıq. Bu işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək üçün məsul işçilərimiz arasında iş bölgüsü aparılıb. Demək olar ki, işin üstündə dururuq və görülən işlərin keyfiyyətli olmasını tələb edirik. Gündəlik iş rejimində ərazimizdə baş verən ən xırda problemdən də xəbərimiz olur.

**A. Ə.** – Rayonda gedən müsbət işlərlə tanışlıqdan sonra problemlərdən danışmaq yersiz kimi görünə bilər. Lakin iş olan yerdə kəm-kəsirin, müəyyən nöqsanların olması da təbiidir. Qardabani rayonunda hansı problemlər öz həllini gözləyir və bu problemlərin həll olunması üçün hansı işlər görülməlidir? Zəhmət olmasa bu barədə qısaca fikrinizi bildirin.

**D. H.** – Əlbəttə görülən müsbət işlərdən danışırıq. Lakin danmaq olmaz ki, həllini tapmayan işlərimiz də var. Belə ki, Qardabani şəhərinin abadlaşdırılması ilə əlaqədar geniş miqyaslı planlarımız var, onların bir hissəsinin həllinə yaxın vaxtlarda nail olacağıq. Uzun müddətdən bu günə qədər təbii qaza olan həsrətə son qoyulacaq.

**A. Ə.** – Dünyamalı müəllim, hələ əvvəlki iqtidarların zamanından rayonumuzun bir çox kəndlərində torpaq məsələsi həll olunmamış qalmaqdadır. İllərdir ki, əhali bu problemin ədalətlə həll olunacağına ümid bəsləyir. Ancaq bu problem həll olunmur ki, olunmur. Ölkəmizin ümumi bəlası olan işsizlik fonunda kəndlinin torpadan uzaqlaşdırılması onun yaşayış mənbəyindən məhrum edilməsi anlamına gəlir. Bu məsələnin çözülməsi yönündə rayon rəhbərliyi hansı addımları atıb və ya atmaq niyyətindədir?

**D. H.** – Çox düz qiymətləndirirsiniz. Konkret, adını sadalamaq istəmədiyim kəndlərimiz var ki, torpaq islahatı



**Xalqla yola getməyin sirrinə gəlincə isə sosial sıxıntılar içərisində çırpınan təbəqə ilə və ya digər problemlərlə üzləşən eloğlumla ünsiyyətdə, təvazökarlıqdan uzaq olsa da, mən heç vaxt özümü məmur kimi aparmamışam. Hər vaxt özümü onların qulluqçusu hesab etmişəm.**

öz vaxtında düzgün aparılmamışdır. Bir qrup işbaz dırnagı ətdən ayırmaq kimi, kəndlini torpaqdan ayırmışlar. Məsələnin çözülməsi üçün də əl tutmağa heç bir yer qoymamışlar. Nə qədər üzücü də olsa deməliyəm ki, özəlləşdirilmiş torpaqların geri qaytarılmasına mənim də gümanım yoxdur. Munisipalitet olaraq bu çözülməz işi araşdırmaqdansa, vaxtımızı həlli mümkün olan işlərə sərf edirik. Misal üçün deyə bilərəm ki, islahat nəticəsində həyətyanı torpaq sahəsi almış şəxslər yaxın vaxtlarda sadələşdirilmiş bir qayda ilə torpaqlarının qanuniləşməsinə nail olacaqlar.

**A. Ə.** – Bildiyiniz kimi artıq ölkəmizdə rəsmi qaydada parlament seçkilərinin başlanması elan olunub və demək olar ki, ölkə miqyasında seçkiqabağı kampaniyaya start verilib. Camaat bundan əvvəlki dönəmlərdə də partiyaların, seçki bloklarının şirin vədlərini eşidiblər. Lakin seçki başa çatdıqdan sonra seçki ərəfəsində fəallıq göstərənlər, yağlı vəd verənlər yoxa çıxırlar. Camaata qızıl dağ vəd edənlər, heç bürünc dağ da yaratmırlar. Bu barədə sizin fikrinizi bilmək maraqlı olardı.

**D. H.** – Bəli, hamımız bilirik ki, artıq seçki kampaniyasına rəsmi start verilib. Təbiidir ki, bir çox siyasi partiyalar və seçki blokları yerlərdə görüşlər təşkil edəcək və vədlərini sadalayacaqlar. Seçki bir az qəliz mövzudur. Fikrimcə, seçicilər dəfələrlə onlara vəd verib aldadanları yox, iş görənləri seçsələr yanılmazlar.

**A. Ə.** – Dünyamalı müəllim, vaxt ayırıb qəzetimizə müsahibə verdiyinizə, habelə oxucularımızı maraqlandıran suallara aydınlıq gətirdiyinizə görə təşəkkürümüzü bildiririk. Son olaraq bizim vermədiyimiz, ancaq sizin cavablandırmaq istədiyiniz hər hansı bir sual qalıbsa, buyurub deyə bilərsiniz.

**D. H.** – Mən də öz növbəmdə sizə və oxucularımıza dərin təşəkkürümü bildirirəm. "Yeni Yol" qəzetinə uzun ömürlü olmağı arzulayıram. Bölgəmizdə gedən proseslərlə bağlı oxucuları maraqlandıran istənilən gerçək məlumatı vermək, eləcə də qəzetinizlə əlaqədə olmaq üçün hər zaman hazıram.

Söhbətləşdi: A. A. ƏLİYEVA

## "İNTER RAO" QARDABANİ İSTİLİK ELEKTRİK STANSİYASINI SATDI

Rusiyanın "İnter RAO" dövlət şirkəti 100%-lik səhmlərinə sahib olduğu "Mtkvari" İES-nın satışının başa çatdığını elan edib. Söhbət Qardabanidə yerləşən iki enerji blokundan ibarət və 300 MVt gücə malik olan İES-dən gedir. "Mtkvari energetika" MMC-i təsis edən şirkətin payına investorlar konsorsiumuna daxil olan beynəlxalq şirkət sahib olub.

Gürcüstan sənaye qrupu əldə olunmuş aktivlərdən həm mövcud gücü saxlamaq, həm də gələcəkdə çinli tərəfdaşlarla birlikdə strateji layihələrin gerçəkləşdirilməsi üçün istifadə olunmasının planlaşdırıldığını bildirib.

"İnter RAO"-nun investisiya və strategiya blokunun rəhbəri İlnar Mirsiyapov bildirib ki, Gürcüstandakı İES-in satışı şirkətin strategiyasının bir hissəsidir və biznesin Rusiya Federasiyasında inkişafına yönəlib.

"Bununla belə biz Gürcüstanda həm hidrogenerasiya, həm də elektrik enerjisinin bölüşdürülməsi və satışı sahəsində fəal şəkildə işimizi davam etdirirk", – Mirsiyapov əlavə edib.

"İnter RAO" "TELESİ" SC-nin səhmlərinin 75,1%-inin də sahibidir. Yerdə qalan səhmlərin sahibi Gürcüstan əməkdaşlıq fondudur. "Xrami-1" və "Xrami-2" SES də "İnter RAO"-ya məxsusdur.

Gürcüstan sənaye qrupu İES-i almaqla öz aktivlərini genişləndirib. O, artıq özünün törəmə şirkəti "Gürcüstan beynəlxalq enerji korporasiyası" vasitəsilə yenə də Qardabanidə yerləşən və qazla işləyən, 300 MVt gücündə İES-ə də sahibdir. Gürcüstan sənaye qrupu Tkibulidə iki kömür şaxtasının, 13,2 MVt gücündə İES-in, ümumi gücü 49 MVt olan səkkiz kiçik SES-nın da sahibidir.

## SOCAR VƏ GÜRCÜSTANIN İDMAN NAZİRLİYİ MEMORANDUM İMZALADILAR

SOCAR və Gürcüstan idman nazirliyi əməkdaşlıq haqqında memorandum imzalayıblar. Bu barədə SOCAR Energy Georgia şirkətinin baş direktoru Mahir Məmmədov məlumat verib.

Onun sözlərinə görə, memorandumun imzalanmasından məqsəd idmanın inkişaf etdirilməsidir: "Biz artıq uzun illərdir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlığı möhkəmləndirmək üçün birgə fəaliyyət koordinasiyasını nəzərdə tutan memorandumu imzaladıq. Əməkdaşlıq 2016-2017-ci illəri əhatə edəcək".

Mahir Məmmədov hələlik əməkdaşlığın maliyyə məsələlərinin müzakirə olunmadığını bildirib: "Hələ bu barədə dəqiq məlumat yoxdur. Ola bilər ki, gələcəkdə müzakirə edək. İndi bu, sadəcə qarşılıqlı əməkdaşlıq haqqında memorandumdur".

Baş direktor memorandumun müxtəlif idman sahələrini əhatə edəcəyini vurğulayıb.

Qeyd edək ki, memorandumu SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Gürcüstan gənclər və idman naziri Tariel Xeçikaşvili imzalayıblar.

## ALMANİYA BUNDESTAQININ SAXTA SOYQIRIM SEVGİSİNİN GİZLİNLƏRİ

**Almaniya bundestaqının 1915-ci ildə Osmanlıda "erməni və digər xristianların məhv edilməsi"nə dair, qısaca olaraq saxta erməni soyqırımına dair qanun layihəsini təsdiq etməsinin türk-alman münasibətlərinə ciddi zərbə vuracağına şübhə yeri qoymur. Beləliklə, yalana və saxtakarlığa siyasi izdivac verən və yumşaq desək, Türkiyənin dostu olmayan ölkələr sırasına bir yenisi də əlavə olundu. Xatırladaq ki, indiyədək qondarma erməni soyqırımını rəsmi səviyyəsində dünyanın 25 dövləti təsdiq etmişdir. İlk dəfə erməni fitnəsinə 1965-ci ildə Argentina uymuşdur.**

Bəyannamənin məhz Almaniya tərəfindən qəbul edilib-edilməməsi məsələsi Türkiyə üçün ayrıca həssas önəm daşıyırdı. İlk öncə Almaniya-Türkiyə münasibətlərində əməkdaşlıq həmişə bir üst səviyyədə olmuşdur. Almaniyaya axın edən suriyalı qaçqınların Türkiyəyə qaytarılması məsələsində Avropa İttifaqı ölkələri içərisində ən çox Berlinin cəfa sərf etməsi danılmaz bir fakdır. İkinci bir tərəfdən, XX əsrdə baş vermiş iki dünya müharibəsinin "baiskarı" və bu müharibələrdə hərbiçilərlə yanaşı 10 milyonlarla mülki şəxsi qətl edən də Almaniyadır. Görünür ki, bəşər tarixində ən ağır cinayət törədərək etnik zəmində qətliamlar törətmiş Almaniya bu üz qaraldan siyahıda öz adının yanına böhtanlar ataraq, digərlərini də pərçimləmək və həm də belə bir qətliamın ilk olaraq türklər tərəfindən həyata keçirildiyini siyasi gündəmə gətirmək fikrindədir. Çox təəssüf ki, II dünya müharibəsi qətliamları içərisində təkcə "Holokost" hüquqi status almışdır. Etnik mənsubiyyətinə görə Rusiyanın Çeçenistanda, Almaniyanın Namibiyada, Fransanın Əlcəzairdə yerli etnoslara qarşı törədikləri kütləvi qətllərə isə göz yumulmaqdadır.

Məlum olduğu kimi I dünya müharibəsində (1914-1918-ci illər) Osmanlı "Üçlər" İttifaqına daxil olan Almaniya ilə müttəfiq dövlət idi və məntiqi olaraq eyni cəhbədə vuruşurdular. Əgər indi, şayət, 1915-ci ildə Osmanlıda türklər tərəfindən erməni və digər xristian inanclı insanlara qarşı kütləvi qırğın törədilmişdirsə, deməli, belə çıxır ki, Almaniya da bu prossesdə biləvasitə iştirak edib. Yəni, almanlar saxtalaşdırılmış tarix səhfəsini fakta çevirmək üçün yüz ildən sonramı ağıllandılar? –Absurddur.

Bu gün bir çox ölkələrin Ankaraya qarşı yürütdüyü sərt siyasət göz qabağındadır. Türkiyənin parçalanması, onun zəifləndilməsi üçün daxili və xarici qüvvələrin bir müstəvidə səfərbər edilmiş olmasını təsdiq edən çox məqamlar mövcuddur. Qondarma erməni genosidi lahiyəsinin Almaniya bundestaqına "Almaniya Yaşıllar Partiyasının" həmsədri Cem Özdəmir tərəfindən təqdim edilməsi ayrıca qınaq yeridir. Almaniyada doğulmasına baxmayaraq, Türkiyə ilə bağları olan, çərkəz əsilli, xarici görkəmcə siyasi personajdan daha çox qeyri-ənənəvi cinsi oriyentasiyanın nümayəndəsinə bənzəyən Cem Özdəmir "fiqurcuğu" erməni libasına bürünərək, özünə siyasi karyera cızmaq eşqinə düşən sadəcə bir zatdır. Bu o, zatdır ki, Türkiyədə sonuncu növbədənkənar parlament seçkiləri ərəfəsində xaricdə yaşayan türk vətəndaşlarını yalnız terror təşkilatı olan PKK-nın siyasi qanadı BDP-yə (Sülh və Demokratiya Partiyası) səs verməyə səsləmişdir.

Bu arada, sözügedən qondarma sənədin alman bundestaqında qəbul edilməsindən dərhal sonra Türkiyə parlamentinin cavab reaksiyası gecikmədi. Türkiyə Böyük Millət Məclisində təmsil olunan siyasi partiyalardan BDP bir daha özünün iç üzünü açaraq türk siyasətində xarici qüvvələrin oyuncağı, erməni "qardaşları" ilə həmfikir olduğunu sübut etdi. Belə ki, BDP üzvləri bundestaqın qəbul etdiyi bəyannaməni dəstəklədiklərini və onun əlehinə çıxmadıqlarını bildirdilər. Lakin, digər iki parlament partiyası olan CHP və MHP müxalifətdə olmalarına baxmayaraq, milli identifikasiyaya sadiq qalaraq adıgedən qanun lahiyəsini şiddətlə qınadılar. Hər il qondarma erməni genosidinin anım günü ərəfəsində adıgedən məsələnin Gürcüstan parlamentində də müzakirəyə çıxarılmasına cəhd edilsə də, bu cəhdin qarşısı lazımlı və tutarlı cavablarla alınır.

Almaniyanın erməni soyqırımını təsdiq etməsi, şübhəsiz ki, Alman-Türk münasibətlərini ciddi surətdə axsadacaq, ortada udan isə ermənilər olacaq.

**Schande über dich, Deutschland! (Təəssüflər olsun, Almaniya!)**

Sahib MUSTAFA

## NƏHƏNG "QARA DƏNİZ DAİRƏVİ YOLU"NUN TİKİNTİSİNƏ BAŞLANIR

Soçidə dairəvi avtomagistralın tikinti marşurutunun variantları müzakirə olunub. Qara dəniz ətrafında dairəvi magistral 12 Avropa ölkəsinin ərazisini əhatə edəcək.

Soçidə Qara dəniz ətrafını dolaşacaq dairəvi avtomobil yolunun inkişaf etdirilməsi üzrə komitənin işçi qrupu özünün növbəti iclasını keçirib. Qara dəniz dairəvi magistral layihəsi Yunanıstan, Albaniya, Gürcüstan, Azərbaycan, Bolqarıstan, Moldova, Türkiyə Və Rumıniya nümayəndələri tərəfindən müzakirə edilib.

İştirakçılar Qara dəniz dairəvi avtomagistralının keçəcəyi variantlara baxıb və ayrı-ayrı sahələr üzrə onun keçmə marşurutunu dəqiqləşdiriblər.

Bu avtomobil yolunun ümumi uzunluğu 7140 kilometr olmaqla, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin ərazisindən keçəcək.

## İRAN PARLAMENTİNDƏ TÜRK MİLLƏT VƏKİLLƏRİ FRAKSİYA YARATDILAR



İran parlamentində 60 türk (azərbaycanlı) nümayəndəsindən ibarət türk millət vəkillərinin Fraksiyası yaradılıb.

Tehran, Urmu, Meşginşəhr və Xudabəndə şəhərlərinin millət vəkilləri sözügedən Fraksiyanın müvəqqəti İdarə Heyətinə üzv seçiliblər. Təbrizdən parlamentə millət vəkili seçilmiş Əhməd Rza Beyginin də adı İdarə Heyəti üzvləri arasındadır.

Ə.R.Beygi bildirib ki, yeni yaradılan Fraksiya parlamentdə qəbul olunan müxtəlif layihələrdə öz təsirini göstərəcək.

Əhməd Rza Beygi onu da əlavə edib ki: "Fraksiya müxtəlif düşərgələrə mənsub olan millət vəkillərini bir araya gətirir və onların arasında güclü birlik yaradır. Bu birlik ölkə vilayətlərinə diqqəti artıracaq və onların arasında vəsaitin ədalətli şəkildə paylanmasına yardımçı olacaq."

Bundan əvvəlki parlamentlərdə türk millət vəkilləri xüsusi Fraksiyada bir araya gəlməyib və onların arasında ciddi bir birlik müşahidə olunmayıb. Şərhçilər sözügedən Fraksiyanın yaradılmasını milli birlik uğrunda atılmış addım kimi qiymətləndirirlər.

## ƏFSANƏVİ BOKSÇU MƏHƏMMƏD ƏLİ VƏFAT ETDİ



Əfsanəvi amerikalı boksçu Məhəmməd Əli 74 yaşında vəfat edib.

Bir neçə gün öncə vəziyyəti pisləşən boksçu Arizonada xəstəxanaya yerləşdirilsə də, iyunun 3-də ağciyər çatışmazlığından dünyasını dəyişib.

Məhəmməd Əli otuz ilə yaxın idi ki, Parkinson xəstəliyindən əziyyət çəkirdi.

Xatırladaq ki, əsl adı Kassius Kley olan məşhur idmançı 22 yaşında İslamı qəbul edib və Məhəmməd Əli adını götürüb. Peşəkar karyerasına 1960-cı ildə başlamış boksçu iki dəfə – 1964 və 1974-cü illərdə WBA versiyası üzrə dünya çempionu olub. Karyerası ərzində 61 görüş keçirərək 56-sında qələbə qazanan əfsanəvi boksçu yalnız 5 görüşdən məğlub ayrılıb.

## QAÇQINLARIN SAYI İKİNCİ DÜNYA MÜHARİBƏSİ SƏVİYYƏSİNƏ ÇATIB

Son 8 ildə dünyada məcburi köçkünlərin sayı 57 milyon nəfərə çatıb. Bu, İkinci Dünya müharibəsi bitdikdən sonra ən pis göstəricidir.



Bu barədə Sidney İqtisadiyyat və Sülh İnstitutunun hesabatında deyilir.

İnstitutun Qlobal sülhsevərlik indeksinə əsasən, 2015-ci ildə silahlı münaqişələrdə ölənlərin sayı 25 ilin ən yüksək səviyyəsinə çatıb. Silahlı münaqişələrdə ölənlərin sayı son 7 ildə 5 dəfə artaraq 101 minə çatıb.

Ötən ilin göstəricisi ilə müqayisədə terror aktları nəticəsində ölüm halları 80% artıb. Belə ki, terror qurbanlarının sayı 32 mini keçib, bu isə 2008-ci il göstəricindən 286% çoxdur. Yalnız 69 ölkənin 2015-2016-cı illərdə terror aktlarından əziyyət çəkmədiyi də məlum olub. İl ərzində terror aktlarında ölənlərin sayının 500 nəfərdən çox olduğu ölkələrin sayı 5-dən 11-ə çatıb.

Reytinqə əsasən, dünyada ən sülhsevər ölkə İslandiyadır. Siyahıda onun ardınca Danimarka, Avstriya, Yeni Zelandiya və Portuqaliya yer alıb. Ən təhlükəli ölkələr kimi isə İraq, Cənubi Sudan və Suriya göstərilib.

Hesabat müəlliflərinin istinad etdiyi göstəricilər arasında zorakı ölüm hallarının sayı, ölkənin silahlanmasının səviyyəsi, silah idxalının həcmi, ölkə daxilində zorakı ölüm hallarının səviyyəsi ilə bağlı durum və s. yer alıb. Sülhsevərlik indeksinin göstəriciləri nəzərəçarpacaq dərəcədə Yaxın Şərq və Şimali Afrikada pisləşib. Ən sakit və sülhsevər region adını isə Avropa qazanıb.

Hesabat müəllifləri həmçinin 2015-ci ildə "zorakılıq xərcləri"ni açıqlayıblar. Bu rəqəm 13,6 trilyon dollar təşkil edib. Dünya ümumi daxili məhsulunun 13,3 faizinə bərabər olan müvafiq göstərici birbaşa xarici investisiyaların həcmindən 11 dəfə çoxdur.

## ƏN ÇOX SİLAH ALAN VƏ SATAN ÖLKƏLƏRİN REYTİNQİ AÇIQLANDI

2015-ci ildə dünya silah ticarəti bazarı 10% genişlənərək 65 milyard dollara çatıb.

Bu barədə IHS şirkətinin "Global Defence Trade Report" adlı hesabatında deyilir.

Hesabata əsasən, silah ticarətindəki artım Səudiyyə Ərəbistanının fəallığı ilə bağlıdır.

Krallıq ötən il 9,3 milyard dollar məbləğində silah – Apache helikopterləri, F-15 təyyarələri, pilotsuz uçuş aparatları və yüksək dəqiqliyə malik snayper tüfəngləri alıb.

Ən çox silah idxal edən ikinci ölkə Hindistandır. O, silah almağa 4 milyard dollardan çox vəsait xərcləyib. Üçüncü yerdə qərarlaşan Avstraliya 2,5 milyard dollarlıq silah alıb. Siyahıda dördüncü olan Misirin silah alışına 2,3 milyard dollar və siyahının beşincisi Cənubi Koreyanın 2,1 milyard dollar vəsaiti gedib.

2015-ci ildə ən çox silah satan ölkə isə Amerika Birləşmiş Ştatlarıdır.

ABŞ 2015-ci ildə 23 milyard dollar, ikinci pillədə qərarlaşan Rusiya isə 7,5 milyard dollar dəyərində silah satıb.

# ŞAİRLƏR GÜNÜNƏ POSTSKRİPTUM

*Şükrünə ölüm, ilahi, bu dünyada şairlər günü deyilən bir gün də varmış. Yəni bu dünya qadınlar gününü, uşaqlar gününü, hətta sevgililər gününü qeyd etdiyi kimi, şairlər gününü də qeyd edirmiş. Bilmirəm ağlamalıdırmı, yoxsa gülməlidirmi, amma bu günün bayram edilməsi təşəbbüsü ilə bizim xalqın çıxış etməsi bir qədər düşündürücü kimi gəldi mənə. Nə gizlədim mənim bu gözəl günün varlığından dünəndə-srağagündə xəbər tutmamın elə bir önəmi də yoxdur. Bu günü icad edənlər hardan bilə bilərdilər ki, mən az-çox sözə yaxın adam olsam da, bundan xəbərsiz qalacam. Hə, bu yerdə deyiblər, hər yarağımız bitmişdi, bircə saqqal darağımız qalmışdı, o da düzəldi. Bircə şairlər günümüz əskik idi, o da icad olundu. Amma tələsik onu da vurğulamağı özümə borc bilirəm ki, mən özümü hər yeni təşəbbüsün yanında duranlardan hesab edirəm. İndi bu gözəl mövzu barədə mənim ikibaşlı, bir qədər də kinayəli danışmam bu bayramı düzənləyənlərin əməyinə dodaq büzməm kimi qəbul olunmamalıdır.*

Məni düşündürən, bu mövzu barədə rəncidə olmama nədən olan isə bambaşqa bir zaddır ki, onu da qulluğunuza ərz edib, bala-bala xırdalayacam. Və sonda mənim nə qədər haqlı olduğumu təsdiqləyəcəyinizə də bəri başdan şəkki-şübhə etmirəm.

Hə, biz şair xalqıq. Əslində bizi şair xalq adlandırıblar, Azərbaycan xalqı şair xalqdır deyiblər. Bunu deyən bizə alqışmı edib, yoxsa qarğışmı? Yoxsa oğru yadına daşmı salıb? Biz də bacardıq, bacarmadıq başlamışıq öz ağlımızla şeir yazmağa və az qala yumurtadan cik edib çıxanımız şeir guppuldadır. Bəlkə o, elə bizə xoş gəlmək üçün və ya bizim qəlbimizi oxşamaq üçün belə bir fikir izhar edib. Biz də qaragünlünü dediyinə peşman edib, ağına-bozuna baxmadan şeir adına cəfəngiyyat üyütməyə başlamışıq. Belə də ola bilər. Bəlkə də o bizim quşqunumuz yoxlayıbmış, elə bizi çəkiyə çəkirmiş, mənəvi təxribata təhrik edirmiş, bu axmaq fikri bizə sırımaqla məşğulmuş? Ola bilməzmi ki? Bu məqamda məhəllə şairlərindən biri yaxamdan tutsa yeri var və soruşsa ki, müəllim, bəyəm burda bir qəbahət işmi var, biz xoşbəxt xalqıq, heç kimə möhtac deyilik, millətimizin qəhrəman anaları bir ucdan partapart şair istehsalı ilə məşğuldurlar və gözümüz özümüzə baxır. O, bu kimi gözəlləmələrlə məni susduracağını güman edirsə, yanılır. Mənim ona verəcəyim cavab dilimin ucunda hazırdır. Əlbəhəl deyəcəm: möhtərəm məhəllə şairi, millətin arvadlarının dayanmadan şair istehsalı ilə məşğul olmalarının yaxşı bir zad olduğunu mən də anlayıram. Orasını da qanıram ki, adamın şeirdən-filandan başı çıxmasa da hərdən fikrini şeirlə demək istəyir və guya bu zəhrimar fikri şeir donunda deməsə dünya dağılar, hamı ayaqyalın yatar.

Tifağın dağılsın adam yiyəsi, başına ayrı iş-peşəmi qəhətdir? İndi bu adam öz çərənləmələrinə şeir deyəndə, onda rəhmətlik Füzulinin yazdıqlarına nə deyək? Bu da cəhənnəm, onun şeir adlı sayaqlamaları ilə poeziya adlanan dünyanın xəncərinin daşı-qaşı da düşən deyil, boyu gödək də qalan deyil. Orası da var ki, heç kim kiməsə şeir yazma, xalqın zövqünü korlama fikrini də aşılaya bilməz. Nədən ki, onu qandırmaq üçün dəridən-qabıqdan çıxmağın da əbəsdir, onsuz da dediyindən dönməyəcək və qozbeli qəbir düzəldənə qədər elə biləcək ki, onun çərənləmələri olmadan Azərbaycan, hətta dünya ədəbiyyatının bir yanı boş qalacaq və bu ədəb sənəti onun sandıqda qalanlarına qucaq açmadığından qeyri-kamildir, buna görə də öz yarımçıqlığından utanmalıdır.

Bir də baxıram ki, yeddi yaşlı Abdullah mənə yaxınlaşıb bic-bic gülür və şeir yazdığını iddia edir. İndi özünüz deyin, bu məqamda mən cin atına minmərəmmi, bu əl boyda tifildən soruşmarammı, ay cüvəllağı, sən nə bilirsən ki, şeir nədir və onu da yazasan. O da cavabında qayıda ki, niyə hamı şeir yaza bilər, mən yox. Düşünürəm az qala, ateyi-mehribanım, niyə xalqa adətdir, bizə gələndə bidət oldu demək istəyir. Tez bu fikri özümdən uzaqlaşdırıram ki, bircə bu çatışmır, belə də desə lap havalanaram.

Hə, bizim arvadlar şair doğmaqda qoçaqdırlar. Bu qənaətə gəlməmə şairlərin ana mövzusunda, sevgili canan mövzusunda uzun-uzun şeirlər yazmaları da nədən oldu. Çoxlu-çoxlu şairlərimiz doğulub, bu gün də doğulur, sabah da doğulacaq. Biz onların qədrini-qiymətini biləcəyikmi, yoxsa varlığa nə darlıq deyib, bolluğuna düşmüş kimi onları güllə qabağına verəcək, dar ağacına göndərəcək, çörək ağacından asacağıq? Bilirəm kənd şairlərindən biri qalxıb deyəcək ki, bu xalq ağlını əppəkləmi yeyib, şairini ölümə göndərsin. Bəlkə də çoxları həmin kənd şairinin bu kiflənmiş fikri ilə o saat razılaşacaq. Amma mən qiyamətəcən də razılaşmaram. Nədən ki, onun fikrini bir heç etmək üçün əlimdə gül kimi faktlarım var. Elə bir-ikisini sadaladımmı deyəcəksiniz ki, sən Allah, dayan, külli-aləmdə bizi biabır etmə. Məsələn, desəm ki, Füzulinin doqquz axçasına göz dikib, acından öldürdük, Seyid Əzimi boğub o dünyalıq etdik, Sabirə sabun bişirtdirib satdırdıq, Məhəmməd Hadini çöllərə saldıq, Əhməd Cavadı, Mikayıl Müşfiqi sovetin repressiya maşınının altına öz əlimizlə atdıq, neçə-neçə şairimizi çərlədib öldürdük və bu gün də bunu davam etdiririk – bütün bunları desəm bilirəm maçıyıb qalanlar olacaq. Odur ki, dilimi dişimlə tutub, demək istədiklərimin heç onda birini də demirəm. O üzdən ki, dost-düşmən var.

*Anaların haqqını danmadan və onlardan üzr istəyərək bir onu demək istəyirəm ki, şairi doğub dünyaya gətirmək bəlkə də məsələnin ən asan tərəfidir. Şairi qorumaq, onu təhlükələrdən uzaq tutmaq isə ən çətin məsələdir. Onsuz da anadan şair doğulanlar vətənin, xalqın dar günündə gendə durmayacaq, məhz özləri təhlükənin düz ortasına atılacaqlar. Amma o biçarələri qəsdən, bilərəkdən təhlükəyə atmaq, ölümə atmaq bizim faciəmizdir. Nəzərə alsaq ki, şairlər xalqın danışan dili, döyünən ürəyidir və biz onların məhvində bu və ya digər dərəcədə iştirak edirik, onda faciəmizin böyüklüyünü təsəvvür etmək də o qədər çətin olmaz!..*

A.M. DƏLİVƏLOĞLU

# PLASTİK QABLAR SİZİN SAĞLAMLIĞINIZ ÜÇÜN TƏHLÜKƏ MƏNBƏYİDİR

Heç kimə sirr deyil ki, bir neçə on ildir plastik kütlədən hazırlanmış əşyalar, xüsusilə də ərzaqların qablaşdırıldığı torbalar, qutular, butulkalar və sair məişətimizə, gündəlik həyatımıza nüfuz etməkdədir. Hər gün biz istər-istəməz bu qablardan istifadə etməli oluruq. Cürbəcür maye məhsullar məhz belə qablarda alıcılara təqdim olunur. Əksər hallarda biz bu qabların hansı plastik kütlədən hazırlandığına diqqət yetirmirik. Amma onların üzərində hansı materialdan hazırlandığı barədə qısa məlumatlara rast gəlmək mümkündür. Təqdim etdiyimiz bu yazıda biz bunları sizin diqqətinizə çatdırmağa çalışacağıq. Odur ki, diqqət yetirin:



PET və ya PETE. Bu, insanın hormonal balansına mənfi təsir göstərən ağır metal və maddələrin ayrıldığı bir dəfə istifadə üçün yararlı butulkadır. PET dünyada daha çox istifadə olunan plastik kütlə növüdür. Ondan yalnız bir dəfə istifadə etmək olar. Üzərində PET işarəsi olan butulkalardan təkrar istifadə etməklə siz orqanizminizdə zərərli maddə və bakteriyaların artmasına şərait yaradırsınız.

HDP və ya HDPE. Bu yaxşı keyfiyyətli plastik kütlədir və demək olar ki, ondan zərərli maddələr ayrılmır. Mütəxəssislər məhz belə butulkalarda su almağı tövsiyyə edirlər. Bu təhlükəsiz olduğu qədər də, ekologiya üçün də xeyirlidir, həm də tam şəkildə təkrar emal olunur. HDP və ya HDPE işarəli qablardan ən çox süd məhsullarını, oyuncaqları, yuyucu və gigyenik vasitələri saxlamaq üçün istifadə olunur.

PVC və ya V. Bu materialdan hazırlanan əşyalardan ən azı iki, ikisi də hormonal balansa mənfi təsir göstərən təhlükəli maddə ayrılır. Bu qablardan əsasən bitki yağlarını saxlamaq üçün istifadə olunur. Ondan plastik boru və santexnika üçün detallar hazırlanır, həm də bilgisayar kabellərinin sarğısı üçün istifadə edilir. Ekspertlər bu qablardan kənar durmağı məsləhət görürlər.

LDPE. Bu materialdan həm butulka, həm də torbalar hazırlanmasında istifadə olunur. Suda bu materialdan kimyəvi maddələr ayrılmır. Lakin yadda saxlamaq lazımdır ki, o, yalnız su üçün təhlükəsizdir. Ən yaxşı LDPE-də qablaşdırılmış müxtəlif ərzaqları almaqdan çəkinmək lazımdır. Onda qablaşdırılmış ərzaqla bərabər siz ürəyiniz üçün zərəli kimyəvi zəhər də qəbul edirsiniz.

PP. Bu yarışəffaf ağ rəngli plastik kütlədir. Şirə və yoğurt saxlamaq üçün istifadə edilir. Polipropilen özünün termo-stabil xarakteristikasına görə qiymətlidir. Qızdırıldıqda ona qablaşdırılmış ərzaq ərimir, xarab olmur və o, tamamilə təhlükəsizdir.

PS. Ondan əsasən qəhvə stəkanları və əlüstü qidalanma qabları hazırlamaq üçün istifadə olunur. Qızdığı zaman ondan təhlükəli kimyəvi maddələr ayrılır. Polistirol ucuz, yüngül və kifayət qədər möhkəm material olsa da, isti yemək və içkiləri saxlamaq üçün əlverişli deyil.

PC və ya xüsusi işarəsi olmayan plastik kütlədən hazırlanmış qab. Həm su, həm də ərzaq üçün istifadə olunan ən təhlükəli plastik qabdır. Ondan əsəb və immun sisteminə mənfi təsir göstərən bisfinol A maddəsi ayrılır.

Beləliklə, istənilən növ plastik qablarda su və ya ərzaq alarkən, bir daha düşünün, ən azından ötəri də olsa aldığınız suyun və ya ərzağın hansı materialdan hazırlanmış qabda olmasına diqqət yetirin.

Şüşə qablar daha təhlükəsiz və daha etibarlıdır.

**Hazırladı: Afayət AFİQ**

# GÜRCÜSTANDA REKORD SAYDA SƏYAHƏTÇİ VƏ TURİST QEYDƏ ALINIB

Beş ay ərzində Gürcüstanda rekord sayda səyahətçi və turist qeydə alınıb. Bu barədə Gürcüstan Milli Turizm Administrasiyasının rəhbəri Georgi Çoqovadze məlumat verib.

2016-cı ilin mayında 522 359 beynəlxalq turist ölkəmizdə olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə artım 14,9%-dir. May ayının göstəricilərinə görə, Gürcüstanda 24 saat və daha çox qalan səyahətçilərin və ya turistlərin sayı 204 714 nəfər təşkil edib. Artım 24,3%-dir.

Bu ilin may ayında yenə də ən çox səfər Türkiyə (artım 6,8%), Azərbaycan (artım 18,6%), Ermənistan (artım 3,9%), Rusiya (18,7%) və Ukraynadan (30,9%) olub.

AB ölkələrindən gələnlərin sayında da artım müşahidə edilib. Latviya (artım 64%), Polşa (artım 30%), Almaniya (artım 29%) və Litva (artım 21%) kimi ölkələr xüsusilə fərqləniblər.

5 ay ərzində ölkəmizə gələn beynəlxalq səyahətçilərin sayı 2 119 275 nəfər təşkil edib, bu sahədə artım 15,3%-dir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə turistlərin sayında 18,8%-dən çox artım müşahidə edilib, turistlərin sayı 782 814 nəfər olub.

Yanvar-may aylarında ən çox səfərlər Azərbaycan (artım 22%), Türkiyə (artım 6,6%), Ermənistan (artım 2,8%), Rusiya (artım 19,6%) və Ukraynadan (artım 23,8%) olub.

# MƏHƏMMƏD ƏLİ ƏYRİQARDA (bandaj)

**Ömür – doğrudan da aldığımız nəfəslərin sayı olduğuna görə sizin bu dünyadan köçənlərinizə də Allahın rəhmətini diləyirəm.**

Rəhmətlik atamın adı Məhəmmədəlidi. O, çoban idi; ağ qarda, göy dumanda bir quru çomaqla əlimizi çörəyə çatdırdı. Mənim Əyriqara bu cür misilsiz bağlanmağımın səbəbkarı da atam olub.

...Bir avqust günü sinif yoldaşım və yaxın dostum Yaqub bizə gəldi. Dedim yəqin atamın yaylaqdan gəldiyini eşidib görüşmək üçün bizdədir. Təzə qoyun pendirinə kefsiz-kefsiz əl uzadan dostum arada mənə pəjmürdə-pəjmürdə pıçıldadı:

– Bilirsən, Məhəmməd Əlini tutublar.

Kəndimizdə üç-dörd nəfər Məhəmmədəli vardı, amma Yaqub dünya boksunun əfsanəsini deyirmiş: Kassius Marsellus Kleyi – sonralar islam dinini qəbul etməklə adını da dəyişdirən unudulmaz Məhəmməd Əlini...

Yaqub boksu çox sevirdi; hətta əksər Kuba və ABŞ boksçularının adlarını da əzbər bilirdi. O, mənə bunu da demişdi ki, Məhəmməd Əli dünyada yeganə idmançıdır ki, tarixin ən dahi 100 şəxsiyyəti sırasında yer alıb. Sonralar Yaqub yaxşı tarixçi oldu. Həm də indi bizim məhlənin uşaqları daha çox "Fənərbaxça", "Barselona", "Beşikdaş" kimi futbol klublarına azarkeşlik edirlər. Amma bu yerdə ucqar və arazbarı sözüm bunda deyil.

...Məhəmməd Əlini vətənində çox incidirdilər; özü də təkcə dərisinin rənginə və Vyetnam müharibəsinə getməkdən imtina etdiyinə görə yox. Ona görə ki, o, həm də yoxsulların və arxasızların yumruğu idi. Təkcə öz haqqını tələb etmirdi...

Dünən onun dəfninə baxa-baxa yadıma düşdü ki, bir vaxtlar Yaqub da, mən də "yastı-yastı təpələr yumruğudur çobanın" nəğməsində də Məhəmməd Əlinin ədalət yumruğunu görürdük.

Məhlədə yaşıdlarımız arasında davamız düşəndə də atamın adının Məhəmmədəli olmağı ilə öyünürdüm. Doğrudur, uşaqlardan irad tutanlar olurdu ki, axı atamın adı bitişik (məhlənin orfoqrafiyası mükəmməl idi), bütün zamanların ən böyük boksçusunun adı isə ayrı yazılır. Üstəlik, atam yumruq davasını xoşlamırdı, onunku arada-sırada dəyənək davası idi...

...Sonralar tarixi ayrı-seçkiliyə görə hətta ABŞ hökumətinin üzr də istədiyi Məhəmməd Əli ağır xəstəliyə – Parkinson xəstəliyinə tutuldu.

Mən yazılarımda Ərəstundan (Aristotel), Don Kixotdan tutmuş, bəzi məşhurları-görkəmliləri Əyriqara gətirmişəm (yaşasın ucqar qələmin xəyal gücü). Ya buralarda "Günəş şəhəri" yaradıblar, bağlanmaqda olan məktəblərimizdə qalıb işləyən də olub, ya da sadəcə olaraq saf bulaq suyuna, təmiz dağ havasına qonaq olaraq ürəkləri istədiyi qədər qalıb istirahət ediblər.

Bunu bilən Yaqub günlərin bir günü mənə yarıciddi, yarızarafat dedi ki, bəlkə Məhəmməd Əlini də dəvət edəsən, bilmək olmaz bəlkə Əyriqar Parkinsonu da sağaltdı. Demədim ki, ay dost, axı Məhəmməd Əlinin yurdu Luisvil hara, Əyriqar hara?..

Onda mənə birdən-birə belə gəlmişdi ki, eynən Parkinson xəstəliyinin əlamətləri misallı, hətta dağların da duruşu-qaməti pozula bilər və onların da hərəkəti-tarazlığı itə bilər. Doğrudur, dağların mərkəzi sinir sistemi yoxdur (amma kim bilir...) və onların əsəb hüceyrələrinin-neyronlarının dağılıb məhv olması gözlənilə bilməz. Amma – dəqiq yadımdadır millətçilik dalğalarının alovlandığı 1989-cu ildən sonra – Başkeçiddən Sınıq körpüyə tərəf köç başlayanda elə bildim düzülqarlı Əyriqar da Parkinson xəstəliyinə tutulub; sanki ləngərini itirmişdi. Qarşıyatan qarlı dağlar da əvvəlkitək dalğalanmırdılar...

Şükürlər olsun, hər şey rinqsiz, nokautsuz qurtardı.

**P.S.**

Bəlkə Məhəmməd Əli Əyriqara gəlsəydi, buralarda dincəlsəydi, doğrudan da yaxşı müalicə götürə bilərdi. Axı bizim dağların, xüsusən də Əyriqarın əsəbləri dəmirdəndi. Baxın: buraların adamları dəmirəsəb olmaqda dağlara çəkməyiblərmi? Biri elə Yaqubla mən! Arada-sırada anaxronizmlərlə və affirmasiyalarla yaşayan Yaqubla mən. Hələ unudulmaz Mirzə Qələmi də demirəm.

...amma dünən Məhəmməd Əlinin Türkiyə televiziyası ilə canlı yayınlanan cənazə mərasimində insan çoxluğunu görüb kövrəldim; belə görünür ki, elə də dəmirəsəb deyiləmmiş...

**...Yaqub bunu da deyirdi ki, bir zamanlar Məhəmməd Əliyə qadın azarkeşlərindən çoxlu sayda eşq məktubları gəlirmiş. Onun dəfnində kənarda ağlayan, həm də şahanə gözəlliklərinin izi hələ də qalmaqda olan qadınlar da var idi.**

**İBRAHİMXƏLİL**

# GÜRCÜSTANDA AVTOMOBİLLƏRİN SAYI SON DƏRƏCƏ SÜRƏTLƏ ARTIR

Son məlumatlara görə, ölkədə 1,2 milyon avtomobil qeydiyyatdan keçib. 2016-cı ilin yanvarında bu rəqəm 1,1 milyon idi. Düzdür, bura ümumi maşınların 10%-ini təşkil edən işləməyən maşınlar da daxildir.



Mütəxəssislərin fikrincə, bu cür böyük axın sükanı sağda olan avtomobillərin idxalının artması ilə bağlıdır. Dilerlərin özləri bildirirlər ki, sağsükanlı maşınları əsasən yerli sakinlər alırlar.

1,2 milyon maşından 400 mininin yaşı 20-dən artıqdır. Nəqliyyat və Yol Assosiasiyasının rəhbəri David Mesxişvilinin sözlərinə görə, məhz bu kateqoriyadan olan maşınlar texniki baxışdan keçə bilmirlər. Yeni, yəni 0-3 yaş arası maşınlara gəlincə, Gürcüstanda onların sayı cəmi 50 000 ədəddir ki, bu da çox azdır.

"Gürcüstanda ictimai nəqliyyatı mütləq qaydada inkişaf etdirmək və vətəndaşları ondan istifadəyə həvəsləndirmək lazımdır. Avtomobillərin sayının çox olması rifahın və güclü iqtisadiyyatın göstəricisi deyil. Bu, hər şeydən əvvəl göstərir ki, nəqliyyat sahəsi düzgün istiqamətdə inkişaf etmir. Avtomobillərin çoxu cüzi gəlir əldə etməyə xidmət edir. Nəzərə almaq lazımdır ki, ictimai nəqliyyat da düzgün inkişaf etmir. Avropada bu istiqamətdə ciddi tədbirlər həyata keçirilir. Məsələn, maşınların sayını azaltmaq üçün bələdiyyələr dövlət qulluqçularına pulsuz bilet verirlər, bir avtobus hər gün 100 avtomobilin küçəyə çıxmasını əngəlləyir", – David Mesxişvili vurğulayıb.

Avtomobillərlə bağlı araşdırma aparan Gənc maliyyəçilər və biznesmenlər Assosiasiyasının fikrincə, Gürcüstanda 1,2 milyon avtomobilin mövcudluğu həyacanlı statistikadır. Assosiasiyanın analitiki Paata Bayraxtarinin sözlərinə görə, bu, planlaşdırılmış tənzimləmə olmasına baxmayaraq, sağsükanlı avtomobillərin sayının sürətlə artması ilə bağlıdır. O, bildirib: "Gürcüstanın avtoparkı çətin vəziyyətdədir, bu sahədə tam özbaşnalıqdır. Əməli olaraq hər iki-üç Gürcüstan sakinindən biri avtomobil ala bilər, bu proses olduqca sadədir. Bundan əlavə avtomobil parkında maşınların 30%-i 20 yaşdan böyükdür".

Onun sözlərinə görə, hesabdan silinmiş avtomobillərə gəlincə, bunun üçün xüsusi qayda lazımdır, bu isə hələlik yoxdur və texniki baxış haqqında qanun qəbul edilmədən də yəqin ki, olmayacaq.

Assoaiasiyada bildiriblər: "Vəziyyətdən ən sadə çıxış şəffaf və Avropa standartlarına uyğun ümumi texniki baxış sisteminin yaradılmasıdır. Gürcüstana qeyri-məhdud sayda avtomobillər, o cümlədən də sağsükanlı avtomobillər idxal olunduğundan ölkənin avtomobil yolları çox yüklənib. Bu çox təhlükəli bir meyldir, çünki bu cür avtomobillər qonşu ölkələrə ixrac olunmur, məsələn, Azərbaycanda sağsükanlı avtomobillər ümumiyyətlə qadağandır".

İdxalçıların məlumatına görə, 2016-cı ilin birinci kvartalında avtomobil idxalı 2015-ci ilin eyni dövrü ilə müqayisədə 8% artıb.

"Robano motors" diler şirkətinin təsisçisi Elquca Camaqidzenin fikrincə, idxalın artması əsasən mövsimi xarakter daşıyır. O, əlavə edib: "İdxalın sürəti ola bilsin ki, yayda enəcək, lakin mövcud təmayül yəqin çox da dəyişməyəcək. Yəqin ki, o, payızın sonunadək qalacaq. İdxalın artması 2000 dollardan 4000 dollaradək qiyməti olan ucuz maşınların yaxşı satılması ilə bağlıdır. Məhz buna görə, satış göstəriciləri də artır".

**Hazırladı: Elsevər ELDAROĞLU**

# DÖVLƏT DUMASINDA GÜRCÜSTANLA DİPLOMATİK ƏLAQƏLƏRİN BƏRPA OLUNMASI TƏKLİFİ SƏSLƏNDİRİLİB

Rusiya Dövlət Dumasının aşağı palatasının RLDP fraksiyasından olan deputatı Vitali Zoloçevskiy Rusiya xarici işlər naziri Sergey Lavrovun adına müraciət hazırlayıb. Müraciətdə Gürcüstanla diplomatik münasibətlərin bərpa olunması haqqında məsələyə yenidən baxılması təklif olunur.

Deputat 2008-ci il faciəvi hadisəsindən xeyli vaxt keçdiyini, Gürcüstanda hakimiyyətə tamam başqa adamların gəldiyini vurğulayıb. Bu isə nəqliyyat əlaqəsinin bərpa olunmasına, mal dövriyyəsinin artmasına səbəb olub. Avropaya inteqrasiya məsələlərində Gürcüstanın mövcud problemləri fonunda Moskva Tbilisiyə tərəf jest edə bilər və ikitərəfli diplomatiyanın bərpasından sonra Gürcüstan hakimiyyətinin Avrasiyaya inteqrasiyanın prespektivlərinə diqqət yetirməsi istisna deyil.

Zoloçevskinin müraciətində əsasən bunlar qeyd olunub: "Rusiya Gürcüstanla diplomatik münasibətlərin bərpa olunmasından imtina etməməlidir. Bu gün bu istiqamətdə güclü iş aparmaq lazımdır. Dost-qardaş münasibətini bərpa etmək, keçmiş münaqişələrdən nəticə çıxarmaq və birgə inkişaf yolu ilə irəliləmək lazımdır. Biz zamanında birlikdə çox çətinliklər dəf etmişik, lakin öz səhvlərini etiraf edənlər güclüdürlər. Siyasi opponentlərimiz daim dolayı və ya AB-dəki nümayəndələri vasitəsilə Rusiyanı postsovet məkanı ölkələrindən ayırmağa cəhd edirlər. Ukraynanın timsalında bəzən onların buna yaxşı müvəffəq olduqlarını görürük. Rusiya əleyhinə tammiqyaslı informasiya müharibəsi aparılır. Biz onu dayandırmağa borcluyuq".

# GÜRCÜSTANDA HƏR DÖRD UŞAQDAN BİRİ YOXSULLUQ HƏDDİNDƏ YAŞAYIR




YUNESKO Gürcüstanda hər dörd uşaqdan birinin yoxsulluq həddində yaşadığı barədə həyacanlı məlumat yayıb.

Təşkilatın Gürcüstandakı rəsmi nümayəndəsi Saşa Qraumenin sözlərinə görə, Gürcüstan nə Avropada, nə da Asiyada ən yoxsul ölkələrdən olmasa da, burada uşaqların yoxsul vəziyyəti narahatlıq yaradır. O, bildirib: "Gürcüstan hökumətinə uşaq hüquqlarının müdafiəsi üzrə konvensiya çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə borclu olduğunu xatırlatmaq istəyirəm. Hakimiyyət uşaqlar arasında yoxsulluğa qarşı mübarizə üzrə fəal tədbirlər görməlidir. Söhbət əsasən səhiyyə, qida ilə təminat və digər böyük xərclər tələb etməyən istiqamətlərdəki fəaliyyət haqqında gedir. Hər uşağa gündə təxminən 5 dollar lazımdır ki, o, özünə gərək olan vitamin və minerallari ala bilsin".

Qraumenin sözlərinə görə, dövlət övladlığa götürülmüş, o cümlədən əcnəbi uşaqların hüquqlarını da maksimum dərəcədə qorumalıdır.

# QƏDİM TİFLİSİN SAZ VƏ SÖZ USTALARI

**(əvvəli qəzetimizin 23-24-cü sayında)**

*Yetim Gürcü Dabğişvilinin əcdadları Osmanlıların hücumlarından birində əsir aparılır. Onlar Osmanlıda müsəlmanlığı qəbul edirlər. Onları gürcülər adlandırırdılar. Bir vaxt keçəndən sonra Yetimin atası İbrahim geri qayıtmağa müvəffəq olur. Yetim Gürcü 1875-ci ildə Tiflisdə dabbaqçı, dəriçi ailəsində anadan olmuşdur. Elə soyadı da dabbağ sözündən götürülmüşdür. Belə ki, qədim Tiflisdə peşədən soyadının götürülməsi bir qaydaya çevrilmişdi. Məsələn, Xarazişvili, Dalakişvili, Xabazi, Mçedlidze-Mçedlişvili, Xaratişvili, Şatiraşvili, Dulqrişvili və s. Onun qohum-əqrəbası olmadığından, öləndən sonra bir kimsəsi qalmayacağına görə atası oğlunun adını Yetim qoyur. Onun haqqında yazan azərbaycanlı müəlliflərin bəzisi bu adın ona Bakıda verildiyini fərz edir. Ona kimi məgər onun adı yox imiş? Yetim15 yaşında ikən atası dünyadan köçür. Anası və kiçik bacısı onun himayəsində qalır. Musiqi alətləri ustası yanında şəyird kimi işə başlayır. Çonquri, qaval və tar hazırlamağı öyrənir. Onları evdə də hazırlayır. Bununla yanaşı mağazadan çıxartdığı kitabları Tiflis bağlarında satır. Bu yolla qazandığı pul ilə ailəsini, özünü saxlayır.*

Bir neçə ildən sonra bədbəxt hadisə nəticəsində anası da dünyadan köçür. Bacısı ilə Xarpuxdan Metex məhəlləsinə, balaca bir otağa köçür. Mananaşvililərin zirzəmisində yaşayır. Onun yanına musiqiçilər tez-tez gələrmiş, gənclərə də həvəslə mahnılar öyrədərmiş.

Çar ordusuna çağırılanda əsgərliyə getməkdən imtina edərək, qaçıb çörəkçilərin yanında gizlənir. Burada çörəkçilik peşəsinə də yiyələnir. Lakin tezliklə onu tapıb hərbi borcunu yerinə yetirmək üçün məcburi Jitomirə göndərirlər. Oradan da qaçaraq əvvəlcə Odessada, sonra Batumidə, nəhayət, Bakıda gizli şəkilə yaşamalı olur. Burada 1905-1907-ci illərdə neft sənayesində çalışır. Orada fəhlələrin yığıncaqlarına gedir, çağırış şeirlərini oxuyurmuş. Fəhlə yığıncaqlarının birində öz bayrağını da çıxartmışdır. Orada yazılıbmış: "Sevinirəm, amma ki, inanmıram!". 1907-cı ildə Yetim Gürcü rus imperializminə qarşı yönəlmiş nümayişlərdə iştirak etdiyinə görə yenə ələ keçir. Bu dəfə o, Polşaya, Volın quberniyasının Dubno həbsxanasına göndərilir. Cəzasını çəkən Yetim Gürcüyə Tiflisdə yaşamaq hüququ yalnız 1916-cı ildə verilir. Geri qayıdan söz ustası doğma şəhəri belə salamlayır:

*Salam, mənim Tiflis şəhərim.*
*Sənin itkin düşmüş oğlun qayıtdı.*
*Ey, Gürcüstanın torpağı, daşı, yeri,*
*12 ilin əzabkeşi qayıtdı...*
*..Müqəddəs torpaq, ölməz yazarlar,*
*Onların qəbrini ziyarətə gəlmişəm.*

Yetim Gürcü sadə xalq dilində, Qədim Tiflisin havaları üzərində bədahətən şeirlər söyləyərmiş. Onun şeirlərində əsasən qədim Tiflis həyatı, qədim Tiflis boheması öz əksini tapmışdır. Bunlar da poetik cəhətddən çox təsirli və güclü olmuşdur. O, təşbeh və mübaliğələrdən də ustalıqla istifadə etmişdir.

Yetim Gürcünün ahıl vaxtlarında Verada "Su nasosu"nun yaxınlığında balaca bir otağı var idi. Qalaktion Tabidze, Aleksi Barnov onun yanına tez-tez gələrmiş. Sən demə, Yazıçılar İttifaqına ərizə yazanda nəzmlə yazıb. Nə vaxta qədər yetim olacağını, yazıçıların sırasına qoşulmaq istədiyini bildirib. Həmin vaxtlar Yetim Gürcü İttifaqa üzv qəbul edilir, Barnov Yazıçılar İttifaqı tərəfindən onun otağını da təmir etdirir, gözəlləşdirir. O da öz müqabilində ömrü boyu Aleksandr Barnovu unutmur. Xəstələnən zaman ona şeir də həsr edir.

Yetim Gürcü öz şeirlərində Azərbaycan sözləri ilə yanaşı o vaxtlar çox istifadə olunan rus sözləri də işlədir, dövrün haqsızlığını poetik şəkildə ifadə edir.

Yetim Gürcü şeirlə nəfəs almış, mahnı ilə yaşamışdır. Tənhalığını, yetimliyini şeirə, mahnıya vermişdir. Onlarsız həyatın mənası olmadığını düşünürmüş. Mahnılarının birində yazır:

*Onda ölsün Yetim Gürcü,*
*Nə vaxt şeiri tükəndisə.*

1895-ci ildən gürcü, Azərbaycan, erməni dillərində sinədən şeirlər söyləyərmiş. Şeirlərində və "Annabacı" poemasında Sayat Nova kimi qarışıq ifadələrdən istifadə edərək çoxlu Azərbaycan sözləri də, məsələn, "loğman", "Gürcüstan", "bilən", "gəldi", "məclis", "avara", "qurban", "xal", "qarpız", "xudavənd" sözlərini, "Salam, xoş gəldin", "Vay halına", "Yana-yana", "Bu Bayramın atıdır, bacı de, sənə kim Verdi", "Tez qaçaq, Anna qızdı" ifadələrini işlətimişdir.

Yetim Gürcünün özünün zurnaçılardan ibarət dəstəsi də var idi. O, məktəbə getməmiş, yazı-pozunu kağız torbaları üzərində yazmaqla öyrənmişdir. Onun yaxşı səsi var imiş. Toylara tez-tez gedər, dövrün şairlərinin şeirlərini də avazla ifa edərmiş. Onun ilk kitabı kifayət qədər böyük "Anabacı" poeması 1909-cu ildə nəşr olunur. "Yeni nəğməkar və nəğmələr" şeirlər toplusu 1911-ci ildə, "Yetimin yeni şeirləri" 1913-cü ildə, "Tanqo" kitabı 1914-cı ildə nəşr olunur. 1928-ci ildə İosif Qrişaşvili,1958-ci ildə isə Andro Tevzadze şairin "Seçilmiş əsərləri"ni nəşr etdirir.

1969-cu ildə "Merani" nəşriyyatı tərəfindən Yetim Gürcünün Aleksi Barnovun tərtibatı ilə şeirlər kitabı nəşr olunur. Kitabın redaktoru K.Kaladze 30 şeiri Yetim Gürcünün dəst-xəttinə, üslubuna uyğun gəlmədiyinə, şübhəli hesab etdiyinə görə çıxardır. Georgi Leonidze adına Dövlət Gürcü Ədəbiyyatı Muzeyində Yetim Gürcünün əlyazmaları arasında Azərbaycan dilində də şeirləri vardır. Gürcü hərfləri ilə yazılmış bu şeirlər arasında Yetim Gürcüyə aid olmayan şeirlər də var.

Yetim Gürcü məhəbbət, sevgi şairi olmaqla yanaşı, dostluğun çarçısı idi. Millətindən asılı olmayaraq hamını bir gözdə görürdü, hamını seviridi, şeirlərinin birində yazır:

*Gərək dost kimi yaşaya*
*Qrikul, İvane, Aliya. (yəni Əli – M. M.)*

Bu şeirində gürcü, rus və azərbaycanlı arasındakı dostluqdan söz açır. Bədxah qonşuların nümayəndəsinin adı belə çəkilmir. Atası İbrahimdən başqa Qriqor deyə də çağırılarmış, qədim Tiflisdə öz aralarında Qrikul da deyilərmiş. Məhz gürcünü Qrikul adı ilə vermişdir.

Muxatlı gəlin (Anna bacı, Anabacı) sosial bərabərsizliyə, yadelli düşmənlərə qarşı mübarizə aparmışdır. Bacı



İosif Qrişaşvilinin yazdığına görə, elə sözün özündən də məlum olduğuna görə soydaşlarımız tərəfindən ona əzizlənərək verilən ləqəbdir.Tetrisxaro (Ağbulaq) rayonunda Asureti dərəsinin sol tərəfində Borbalo kəndinin cənubunda yerləşən Muxatda bu gün də bu qadının törəmələri Baciaşvililər adlandırılır. Anna at minib, qılınc çalıb, düşmənə qarşı mərdliklə vuruşub. Adlı-sanlı pəhləvanlarla qurşaq tutub, çoxlarını məğlub edib.

Annabacını ilk dəfə Sayat Nova xatırlamışdır. D. Koridzenin "Gürcü qadınları" kitabında yazdığına görə, çar İraklinin sifarişi ilə Sayat Nova onun qəhrəmanlığına və şəxsiyyətinə şeir həsr edib. 6 bənddən ibarət bu şeir sazəndələrin dilindən düşmürmüş. Odur ki, "Rustaveli övladı, ikinci Sayat Nova kimi, məhəbbət sevgi nəğməkarıyam" – deyən Yetim Gürcü Anna mövzusuna bir daha müraciət edərək, bu igid qadına «İgid qadın Anna bacı" poemasını həsr etmişdir. Burada Anna bacının qəhrəmanlığı və sərgüzəştləri geniş şəkildə öz əksini tapmışdır. Xalq arasında yayılan rəvayətlər Yetim Gürcü tərəfindən nəzmə çəkilərək, gözəl bir əsərə çevrilmişdir. Poema epik janrda yazılıb. Dahi gürcü şairi Şota Rustavelinin şah əsəri olan "Pələng dərisi geymiş pəhləvan" əsərində olduğu kimi təhkiyənin 16 hecalı formasından istifadə etmiş, lakin ondan fərqli olaraq 20, 21, 27, hətta 40 sətirdən ibarət bəndləri eyni bir qafiyyə üstündə kökləməyə müvəffəq olmuş, poeziyaya yenilik gətirmişdir. Bu isə böyük bacarıq və istedadın bariz nümunəsidir. Bu poema bir sərgüzəşt əsəri kimi qədim Tiflisdə sadə xalq arasında çox yayılmışdı. Hamı tərəfindən rəğbətlə qarşılanmışdı.

Yetim Gürcü şeirlərində olduğu kimi, bu poemasında da Azərbaycan söz və ifadələrini işlətmişdir:

"Anna bir "qarpız" kimi onu camaata tərəf tulladı", "Bir bəyin oğlu idi, artıq adı Allahverdi. Gedib dedi Annaya: Salam, xoş gəldin!".

*Məhəbbət və eşq şairi Yetim Gürcü 1940-cı ildə 65 yaşında dünyasını dəyişib. Camaat onun cənazəsini Avlabardan Vake qəbiristanlığına kimi çiyinlərində aparmışdır. Öz arzusuna görə, son məkanda yapıncı ilə olması üçün, ondan ayrılmaması üçün onun qəbri üstünə qara yapıncı örtürlər.*

Mirzə MƏMMƏDOĞLU

(davamı var)

## 10 İYUNDAN İSTƏNİLƏN GÜRCÜSTAN VƏTƏNDAŞI HEPATİT C-NİN MÜALİCƏSİ PROQRAMINA QOŞULA BİLƏR



Pasiyentlərin hepatit C-nin xaric edilməsi proqramına daxil olma məhdudiyyəti ləğv olunur. İyunun 10-undan istənilən pasiyent hepatit C-nin xaric edilməsi proqramına qoşula bilər. Bu barədə əmək, səhiyyə və sosial müdafiə naziri David Sergeyenko mayın 6-da keçirdiyi mətbuat konfransında məlumat verib.

Gürcüstanın hepatit C xəstəliyinə tutulmuş istənilən vətəndaşı heç bir məhdudiyyət olmadan hepatit C-nin xaric edilməsi dövlət proqramından istifadə edə bilər. Qaraciyərinin zədələnmə dərəcəsindən asılı olmayaraq, pasiyentin hepatit C-nin müalicəsi üçün pulsuz dava-dərman almaq imkanı olacaq.

Səhiyyə nairi bildirib: "İyunun 10-dan heç bir məhdudiyyət olmayacaq. İstənilən pasiyent xəstəlik dərəcəsindən asılı olmayaraq maneəsiz bu layihəyə qoşulacaq". Nazirin sözlərinə görə, bu sahədə ikinci yenilik ərizə qəbulu müddətinin iki aydan iki həftəyədək qısaldılmasıdır.

## XARİCDƏ TƏHSİL ALMAQ İSTƏYƏNLƏRDƏN ƏRİZƏ QƏBULU DAVAM EDİR

Gürcüstanın beynəlxalq təhsil mərkəzi xaricdə mədəniyyət sahəsində magistr və doktor proqramları üzrə təhsilini davam etdirmək üçün maliyyə almaq istəyənlərin ərzələrini qəbul etməyə başlayıb.

Xatırladaq ki, müsabiqədə iştirak etmək istəyənlərin ərizələri iyunun 1-dən 30-dək qəbul edilir.

Təqaüd proqramı incəsənət, bərpa və konservasiya sahəsində magistr və doktor proqamları üzrə gənclərin maliyyələşdirilməsini nəzərdə tutur.

Maraqlanan şəxslər müvafiq sənədləri mərkəzin veb-səhifəsinə təqdim etməlidirlər.

Elektron qeydiyyat forması müsabiqə iştirakçılarına ərizəni mərhələlərlə doldurmağa imkan verir. Nəzərə almaq lazımdır ki, ərizənin qəbul müddəti başa çatdıqdan sonra ona düzəliş etmək olmaz.

Dövlətdən maliyyə alan şəxs öz üzərinə təhsil müddəti başa çatdıqdan sonra Gürcüstana qayıtmaq və müvafiq sahədə üç il işləmək öhdəliyi götürür.

Müsabiqə üç mərhələdən ibarətdir. Birinci mərhələdə sənədləşmə və ərizələr yoxlanılır, ikinci mərhələdə xüsusi komissiya elektron ərizənin məzmununu qiymətləndirərək, iştirakçıya bal ( maksimum bal 60-dır) verir. Lazımi miqdarda bal toplayanlar üçüncü mərhələdə, daha doğrusu müsahibədə iştirak edə bilərlər.

Xaricdə olanlar skayp vasitəsilə müsahibədən keçə bilərlər. Müsahibədə maksimum bal 40-dır.

Beynəlxalq təhsil mərkəzinin məqsədi beynəlxalq standartlara cavab verən ixtisaslı peşəkarlar hazırlamaqdır.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 iyun 2016-cı il
№011 (25)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## MARNEULİDƏ TANINMIŞ ŞAİR, JURNALİST FİKRƏT MURSAQULOVUN XATİRƏSİ ANILDI

Bu günlərdə Marneulidəki AtaHoldinq mərkəzində həmyerlimiz, tanınmış şair və jurnalist Fikrət Mursaqulovun xatirəsi anıldı.

Tədbirdə nakam şairin, Borçalının “İşıq əlifbası” olan (xatırladırıq ki, Fikrət gözdən əlil idi) Fikrət Mursaqulovun Azərbaycan və rus dillərində çap olunmuş “Təsəlli” – “Утешение” kitabı tədbir iştirakçılarına təqdim olundu.

1955-ci il iyulun 10-da Marneulinin Qızılhacılı kəndində doğulmuş, cəmi 34 ildən ibarət ömür yaşamış Fikrət ədəbi aləmin yaddaşında istedadlı şair və jurnalist kimi qalıb.

Azərbaycan Mətbuat Şurasının sədri, Gürcüstan – Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov, “Regionpress” qəzetinin redaktoru Binnət Əlioğlu, şairin dostu, filoloq Zahid Nəsibov, Qızılhacılı kənd sakini Xəlil Hüseynov, tədqiqatçı alim, professor Mahmud Kamaloğlu, yazışı-publisist Əli Abbas, şair Səyavuş Uyğun, Fikrətin qardaşı Musa Mursaqulov, yaxın qohumu Elxan Əsgərov tədbirə dəvət almış digər ziyalılar onun ədəbi-estetik ideallarından, həyat sevgisindən, “Təsəlli” kitabının dəyərlərindən danışdılar.

“Təsəlli” – “Утешение” kitabını ruscaya tanınmış şair-tərcüməçi Qia Paçxataşvili çevirib. Ön sözün müəllifi Əflatun Amaşovdur.

**“Yeni Yol”**

## MARNEULİDƏ B.E.Ə. VI MİNİLLİYƏ AİD ÜZÜM ÇƏYİRDİYİ TAPILDI



Marneulinin İmir kəndində arxeoloqların b.e.ə. VI minilliyə aid etdikləri üzüm çəyirdəyi tapılıb.

Beynəlxalq arxeoloji qazıntını Gürcüstan Milli muzeyi və Toronto universitetinin ekspedisiyaları həyata keçirib.

Gürcüstan Milli muzeyinin məlumatında insanın ilk dəfə yabanı üzümü Gürcüstan ərazisində becərdiyi və mədəni üzümdən şərab aldığı bildirilir. Dulus qab qırıntısı üzərində mədəni tənəyin hissəciyi aşkar edilib. Bu da qabda şərab olduğunu təsdiqləyir.

İmir kəndi ərazisində arxeoloji qazıntılar nəticəsində tikililər, qablar, təsərrüfat zirzəmisi və s. də üzə çıxarılıb.

“Şərqi Gürcüstanda neolit abidələrinin arxeoloji tədqiqatına əsasən müəyyən olunub ki, həmin dövrdə cəmiyyət yeni həyat mərhələsinə keçib. Kənd təsərrüfatının inkişafı və heyvanların əhilləşdirilməsi prosesinə başlanılıb”, – muzeyin məlumatında bildirilir.

Arxoloqların sözlərinə görə, əldə olunmuş materialların təhlili və paleobotanik araşdırılması Gürcüstanda qədim üzümçülük mədəniyyətinin aydın mənzərəsini yaradacaq.

Arxeoloji qazıntılarda gürcü alimləri ilə yanaşı Pensilvaniya, Monpelye, Milan, Kopenhagen, Toronto və Rexovot universitetlərinin tədqiqatçıları və tələbələri də iştirak ediblər. Layihəyə Gürcüstan Milli Elmlər Akademiyasının müxbir üzvü David Lortkipanidze rəhbərlik edib.

## DÜNYANIN ƏN GÖZƏL QADINLARI ORTA ASİYA QADINLARIDIR

Orta Asiya qadınları planetimizin ən gözəl qadınları hesab olunub. Alimlər National Geographic və BBC-nin ən cəlbedici və gözəl insanların yaşadığı əraziləri müəyyən edən geniş miqyaslı tədqiqatlarının nəticələrinə əsasən bu fikrə gəliblər.

Araşdırmanın gedişində dünyanın hər ölkəsindən mindən artıq kişinin rəyi öyrənilib. Rəyi öyrənilənlər iki yüz ölkənin sakinlərinin yüzlərlə fotoşəklini qiymətləndirməli olublar. Orta Asiyanı Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan qadınlarının sərbəst qaydada çəkilmiş fotoşəkilləri təmsil edib. Milliyyət və yaş nəzərə alınmayıb.

Orta Asiya kişilərinin 99%-i Orta Asiya qadınlarının fotoşəkillərini seçib. Digər ölkələrdən olan kişilərin 51%-i də Orta Asiya qadınlarına üstünlük verib.

Tədqiqatçılar rəy sorğusunun məlumatlarını hamı tərəfindən qəbul edilmiş gözəllik normaları



və müasir gözəllik meyarları ilə müqayisə ediblər. Nəticədə 4,8 əmsal toplayan Orta Asiya qadınları dünyanın ən gözəl qadınları olublar.

Rusiya, Belorus və Ukrayna regionun qadınları 4,63 əmsal toplayaraq ikinci ola biliblər. Braziliya qadınları 4,11 əmsalla üçüncü, İtaliya xanımları 4,02 əmsalla dördüncü, Kuba qadınları isə 4,01 əmsalla beşinci pillədə qərarlaşıblar.

## PİROSMANİNİN SU İÇƏN CÜYÜR ƏSƏRİNİ BİDZİNA İVANİŞVİLİ ƏLDƏ ETDİ

Niko Pirosmaninin Londonun Sotheby's hərracında satışa çıxarılan “Su içən cüyür” tablosunu 629 000 funta Gürcüstanın keçmiş baş naziri Bidzina İvanişvili alıb. Bu məlumatı “Kartu” fondunun mətbuat xidmətində də təsdiqləyiblər.

Sotheby's hərracında Lado Qudiaşvilinin fırçasına məxsus Niko Pirosmaninin portreti – “Bizim Niko” əsəri də satılıb. 75 000 funta satılan portreti kimin əldə etdiyi isə açıqlanmayıb.



Niko Pirosmaninin “Su içən cüyür” rəsminin başlanğıc qiyməti 150 000 funt, Lado Qudişvilinin “Bizim Niko” əsərinin başlanğıc qiyməti isə 4 000 funt müəyyənləşdirilibmiş.

Bu günlərdə məlum olub ki, Bidzina İvanişvili “Su içən cüyür” əsərini Gürcüstan İncəsənət Muzeyinə bağışlayıb.

## PELE BÜTÜN MÜKAFATLARINI SATIŞA ÇIXARDI



Braziliyanın əfsanəvi futbolçusu, dünya futbolunun parlaq ulduzu Pele 60 illik idman fəaliyyəti dövründə qazandığı bütün mükafatlarını satışa çıxarıb.

Hərrac Londonda həyata keçirilir.

Məlumatda bildirilir: “Ekspertlər deyirlər ki, idman mükafatlarının satışı tarixində bu hərrac ən böyük ola bilər. Hərraca iki mindən artıq nümunə çıxarılıb. Onların satışının beş milyon funta yaxın (7,2 milyon dollar) gəlir gətirəcəyi gözlənilir”.

Futbolçu ona məxsus olan idman mükafatlarının bütün dünya muzey və kolleksiyalarında saxlanmasını istədiyini bəyan edib. O, satışdan əldə edəcəyi gəlirin bir hissəsini xeyriyyə fondlarına bağışlamaq niyyətində olduğunu bildirib.

Xatırladaq ki, Pele FİFA-nın futbol komissiyasının versiyası üzrə XX əsrin ən yaxşı futbolçusu, Beynəlxalq Olimpiya komitəsinin versiyası üzrə isə XX yüzilliyin ən yaxşı idmançısı hesab edilib. O, oyunçu kimi üçqat dünya çempionu olan yeganə futbolçudur.

## ALMANİYADA İNSAN BAŞININ KÖÇÜRÜLMƏSİ ƏMƏLİYYATI HƏYATA KEÇİRİLƏCƏK

Dünyada ilk dəfə Almaniyada insan başının köçürülməsi əməliyyatının həyata keçirilməsi gözlənilir. Əməliyyatı italiylı neyrocərrah Serjio Kanavero həyata keçirmək niyyətindədir.

Həkim əməliyyatı Almaniyada 2017-ci il ilin dekabrında həyata keçirməyi nəzərdə tutduğunu bəyan edib.

Bir neçə ay əvvəl Serjio Kanavero belə bir əməliyyatın uğurla başa çatması üçün 10 milyon avro lazım gəldiyini söyləmişdi. Bu vəsaitin 5 milyonu tibbi personala əməkhaqqı kimi ödəniləcək.

“Səma” adlandırılan insan başının transplantasiyası üzrə layihədə Rusiya proqramisti Valeri Spiridonov iştirak edəcək. O, Verdinq-Hofman xəstəliyindən əziyyət çəkir və demək olar ki, əlil arabasına məhkum olub, tamamilə iflic vəziyyətindədir. Əməliyyat baş tutacağı təqdirdə Spiridonovun başı başqa bədənə köçürüləcək.

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.